

Milli azadlıqdan şirin nemət yoxdur!




# Böyük məsuliyyət böyük işlər tələb edir





# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

13 noyabr 2025-ci il, cümə axşamı
№ 206 (7033)
Qiyməti 60 qəpik


# İlham Əliyev: Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır!



Bax səh. 3

# Cənubi Qafqazın ən güclü ordusu...

Bax səh. 4



## Azərbaycan kədərinizi bölüşür!

Bax səh. 2

## Dövlət Statistika Komitəsində Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunmasının 30 illiyinə həsr olunan təntənəli tədbir keçirilib



Bax səh. 4

# Azərbaycan, Türkiyə, Pakistan qardaşlığı

Bax səh. 5

## Strateji tərəfdaşlıq əlaqələrimiz daha da genişlənib

Bax səh. 3

## Sərmayəçilər üçün "rəqəmsal pəncərə"

Bax səh. 5

## "Fərqliliyin rəngi"...

Ölkəmizdə dinlərarası harmoniya yüksək səviyyədədir

Bax səh. 6

## Tikanı özünə batan gül

Bax səh. 7

## Avropa yeni müharibəyə hazırlaşır



Bax səh. 7

## BBC - saxta media maşını



Bax səh. 6



# İlham Əliyev: Ərazi bütövlüyünün bərpası Azərbaycanın inkişafında yeni tarixi mərhələnin əsasını qoyub

## “Konstitusiya və qanunun aliliyi müasir hüquqi sistemlərdə” mövzusunda təşkil olunan beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları,**

Sizi Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünə həsr olunmuş “Konstitusiya və qanunun aliliyi müasir hüquqi sistemlərdə” mövzusunda beynəlxalq konfransda səmimi-qəlbdən salamlayıram.

Düz 30 il əvvəl bu gün - 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrinin davamı olaraq, ümumxalq səsverməsi - referendum yolu ilə suveren Azərbaycan Respublikasının ilk Konstitusiyasını qəbul etmişdir. Müstəqilliyinin yeni qazanıldığı, ərazilərinin hərbi təcavüzə məruz qaldığı, daxili gərginliyin hökm sürdüyü bir şəraitdə bu ali hüquqi sənədin qəbulu ölkə tarixi üçün çox mühüm ictimai-siyasi hadisə olmaqla, Azərbaycanın dövlət quruculuğunda yeni bir səhifənin başlanğıcını qoymuşdur.

Layihəsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin birbaşa rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış, ümumbəşəri dəyərlərə, dünyanın qabaqcıl demokratik dövlətlərinin konstitusion təcrübəsinə əsaslanan Konstitusiya müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun, vətəndaş cəmiyyətinin bərqərar olmasının və demokratik ənənələrin təşəkkülünün qarantı rolunu oynamışdır.

Əsas Qanunda Azərbaycan xalqı dövlət hakimiyyətinin yeganə mənbəyi olaraq bəyan edilmiş, hakimiyyətlərin bölgüsü prinsipinə uyğun qaydada, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında qarşılıqlı balans və səlahiyyət çərçivəsi müəyyən edilmiş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edilmişdir. Məhkəmə hakimiyyətinin müstəqilliyinin təmini, siyasi plüralizmin dəstəklənməsi, yerli özünüidarəetmənin fundamental əsaslarının formalaşdırılması da Konstitusiyada yer tutan əsas məsələlərdəndir.

Qəbulundan keçən dövr ərzində Konstitusiya ölkə daxilində aparılan çoxşaxəli islahatlar və qloballaşan dünyaya inteqrasiya üçün özül qismində çıxış etmiş, cəmiyyətdə qanunun aliliyinin təmini, azad sahibkarlığın və bazar iqtisadiyyatının inkişafı, xalqın tarixi, milli-mədəni irsinin qorunması istiqamətində əvəzsiz rola malik olduğunu və sağlam təməllər üzərində qurulduğunu sübut etmişdir.

Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı, regionun qabaqcıl dövləti kimi layiqli yer tutması və cəmiyyətdə baş verən ictimai-siyasi proseslər Konstitusiyanın da dövrün çağırışlarına uyğunlaşdırılmasını zəruri etmişdir. Bu məqsədlə müxtəlif illərdə Konstitusiyaya edilən əlavə və dəyişikliklər insan hüquq və azadlıqlarının təminatı mexanizmlərinin gücləndirilməsi, vətəndaş cəmiyyətinin əsaslarının dərinləşdirilməsi və dövlət idarəetməsinin təkmilləşdirilməsi yönündə bir çox əhəmiyyətli məsələləri ehtiva etmişdir.

Bu il biz həm də işğala məruz qalmış torpaqlarımızın azad edilməsi uğrunda apardığımız 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərin beşinci ildönümünü böyük qürur hissi ilə qeyd edirik. Ölkənin ərazi bütövlüyünün və dövlətin suverenliyinin bərpası Azərbaycanın inkişafında yeni bir tarixi mərhələnin əsasını qoymuş, həmçinin iqtisadi, sosial və mədəni sahələrlə yanaşı, hüquqi sahədə də islahatlar aparılmasını zəruri etmişdir. Bu baxımdan, əminəm ki, konfransda konstitusiya quruculuğu sahəsində tanınmış mütəxəssislərin iştirakı ilə müxtəlif aktual mövzularda aparılacaq müzakirələr, əldə olunacaq nəticələr Konstitusiyanın aliliyinin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi istiqamətində öz töhfəsini vermiş olacaqdır.

Bir daha Sizi Bakıda ürəkdən salamlayır və konfransın işinə uğurlar arzulayıram.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri,***
***12 noyabr 2025-ci il***

# Azərbaycan kədərinizi bölüşür!

## Türkiyənin hərbi təyyarəsi Gürcüstanda qəzaya uğradı...

Xəbər verildiyi kimi, noyabrın 11-də Türkiyəyə məxsus hərbi təyyarə Gürcüstanın Kaxeti bölgəsinin Siqnaxi rayonu ərazisində qəzaya uğrayıb. Azərbaycandan Türkiyəyə gedən “C130” hərbi yük təyyarəsinin qəzaya uğraması ilə qısa zamanda axtarış-xilasetmə işlərinə start verilib. Bu barədə Gürcüstanın Daxili İşlər Nazirliyi xəbər yayıb. Bildirilib ki, noyabrın 11-də Siqnaxi bələdiyyəsi ərazisində, Gürcüstanın dövlət sərhədinin təqribən 5 kilometrliyində Türkiyəyə məxsus yük təyyarəsinin qəzaya uğraması ilə bağlı uçuşların təhlükəsizliyi qaydalarının və ya insan tələfatı ilə nəticələnən hava nəqliyyatı vasitəsinin istismarı qaydalarının pozulması maddəsi üzrə istintaq başlanılıb.

## 20 şəhidimiz var...

Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Burhanettin Duran Gürcüstan-Azərbaycan sərhədində qəzaya uğrayan “C130” hərbi yük təyyarəsi ilə bağlı açıqlamasında hadisə ilə bağlı ictimaiyyətin düzgün məlumatlandırılması məqsədilə yalnız rəsmi qurumların açıqlamalarına diqqət yetirilməsinin və təsdiqlənməmiş məlumatların paylaşılmamasının mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Türkiyə Milli Müdafiə Nazirliyi isə qəzaya uğrayan “C130” hərbi nəqliyyat təyyarəsində ümumilikdə 20 nəfərin olduğunu yayıb. Hadisə nəticəsində iyirmi hərbçi həlak olub. Nazirlik sosial mediada qəza qurbanlarının adlarının siyahısını bu sərlövhə ilə paylaşıb: “Vətən sizə minnətdardır!”.

Türkiyənin milli müdafiə naziri Yaşar Güler şəhidlərin ailələrinə və yaxınlarına başsağlığı verib. “Qəhrəmanlarımız 11 noyabr 2025-ci ildə Gürcüstan-Azərbaycan sərhədi yaxınlığında C130 hərbi- nəqliyyat təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olublar. Öz adımdan və Türkiyə Silahlı Qüvvələri adından başsağlığı verirəm və qurbanların ailələrinə, bütün türk xalqına səbir diləyirəm”, - deyə Güler paylaşımda bildirib.



## Prezident başsağlığı verdi, zəng etdi...

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev Türkiyəyə məxsus hərbi yük təyyarəsinin qəzaya uğraması ilə əlaqədar Prezident Rəcəb Tayyib Ərdoğana başsağlığı verib. Dövlətimizin başçısı başsağlığı məktubunda qeyd edib: “Gəncədən qalxan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin Gürcüstan ərazisində qəzaya uğraması nəticəsində hərbçilərin həlak olması barədə xəbər bizi son dərəcə sarsıtdı. Bu ağır anlarda kədərinizi bölüşür, baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin!”.

Bundan başqa, noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib. Dövlətimizin başçısı Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin Gürcüstan ərazisində qəzaya uğraması ilə əlaqədar Türkiyə Respublikasının Prezidentinə, həlak olmuş hərbçilərin ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verib. Türkiyə Respublikasının Prezidenti telefon zənginə və ifadə edilmiş başsağlığına görə Azərbaycan Respublikasının Prezidentinə təşəkkürünü bildirib. Telefon danışığı zamanı Azərbaycanın və Türkiyənin aidiyyəti dövlət qurumlarının qəza ilə əlaqədar təmasda olduqları qeyd edilib.

## Azərbaycan qardaş ölkəyə başsağlığı verdi...

Noyabrın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov da Türkiyənin xarici işlər naziri Hakan Fidana zəng edib. Nazir Ceyhun Bayramov Azərbaycandan Türkiyəyə istiqamətlənən qardaş Türkiyəyə məxsus “C130” tipli hərbi nəqliyyat təyyarəsinin Gürcüstan ərazisində qəzaya uğraması ilə əlaqədar başsağlığı diləklərini çatdırıb, həlak olan təyyarə heyətinə və hərbçilərə Allahdan rəhmət diləyib, doğmalarına səbir arzulayıb. Qəza ilə əlaqədar Azərbaycan tərəfinin Türkiyənin və Gürcüstanın aidiyyəti dövlət qurumları ilə təmasda olduğu bildirilib. Ölkəmizin qəzanın nəticələrinin aradan qaldırılması, axtarış və xilasetmə tədbirlərinin həyata keçirilməsi üçün bütün lazımi dəstəyi göstərməyə hazır olduğu qeyd edilib. Nazir Hakan Fidan başsağlığına və bu ağır gündə göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Gülerə başsağlığı verib. Başsağlığında deyilir: “Azərbaycandan Türkiyəyə yola düşən “C130” hərbi yük təyyarəsinin Gürcüstan-Azərbaycan sərhədində qəzaya uğraması xəbəri məni dərindən kədərləndirdi. Həlak olan hərbi qulluqçulara Allahdan rəhmət diləyir, yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin”.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyev də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Selçuk Bayraktaroğluna başsağlığı verib.

Türk Dövlətləri Təşkilatı (TDT) da Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin Gürcüstan ərazisində qəzaya uğraması ilə bağlı Ankaraya başsağlığı verib. Bu barədə təşkilatın “X” hesabındakı paylaşımında yazılıb. “Bu faciəli qəzada şəhid olanlara Allahdan rəhmət diləyir, ailələrinə, yaxınlarına və qardaş türk xalqına başsağlığı veririk”, - paylaşımda bildirilib.




## Azərbaycan Prezidentinin göstərişi ilə...

Hadisə ilə bağlı noyabrın 11-də Türkiyə və Gürcüstanın xarici işlər nazirləri Hakan Fidan ilə Maka Boçorişvili arasında telefon danışığı olub. Danışıq zamanı Gürcüstan-Azərbaycan sərhədində qəzaya uğrayan Türkiyəyə məxsus hərbi yük təyyarəsi ilə bağlı həyata keçirilən axtarış-xilasetmə işləri barədə məlumat mübadiləsi aparılıb. Gürcüstanın xarici işlər naziri Boçorişvili hadisə ilə əlaqədar Türkiyəyə başsağlığı verib.



Qeyd edək ki, hadisə baş verəndən az sonra Gürcüstanın daxili işlər naziri Gela Geladze əraziyə gedib. Daha sonra Türkiyənin daxili işlər naziri Ali Yerlikaya Siqnaxi bölgəsinə gəlib. Nazir təyyarənin qəzaya uğradığı ərazidə aparılan axtarış-xilasetmə əməliyyatları ilə maraqlanıb. Vurğulayaq ki, Türkiyə tərəfi, həmçinin hərbi yük təyyarəsinin qəzaya uğradığı əraziyə axtarış-xilasetmə qrupu və pilotsuz uçan aparatlar göndərib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə telefon danışığı aparıb. Bundan başqa, Türkiyə-Gürcüstan və Azərbaycan müdafiə nazirləri təyyarə qəzası ilə bağlı məsləhətləşmələr aparıb. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən Baş nazir Əli Əsədov Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin Gürcüstan ərazisində qəzaya uğraması ilə əlaqədar Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə əlaqə saxlayıb. Baş nazir Əli Əsədov ölkəmizin qəzanın nəticələrinin aradan qaldırılması, axtarış və xilasetmə tədbirlərinin həyata keçirilməsi üçün bütün lazımi dəstəyi göstərməyə, həmçinin Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin müvafiq heyətinin həmin əraziyə göndərməyə və digər lazımi dəstək tədbirlərini görməyə hazır olduğunu bildirib.

***P.İSMAYILOV***

# Böyük məsuliyyət böyük işlər tələb edir

## İlham Əliyev: Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Ceyhun Cəlilovu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi, Elxan İbrahimovu Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı, Natiq Ağayevi Balakən Rayon İcra Hakimiyyətinin başçısı, Orxan Mürsəlovu Göyçay Rayon İcra Hakimiyyətinin başçısı, Elvin Paşayevi Qax Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Göygöl Rayon İcra Hakimiyyətinin başçısı, Elşən Həsənlini Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib.





AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev deyib:

"Siz ölkəmizin müxtəlif bölgələrinə rəhbər vəzifələrə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir, əminəm ki, bu etimadı doğruldacaqsınız. Siz öz işinizlə, əməyinizlə qarşıda duran vəzifələrin icrası üçün səylərinizi əsirgəməyəcəksiniz.

Əlbəttə ki, böyük məsuliyyət böyük işlər tələb edir. İlk növbədə, mənim bütün tapşırıqlarımı yerinə yetirməlisiniz. Mən hər dəfə bölgələrə rəhbər vəzifələrə şəxsləri təyin edəndə verdiyim tapşırıqlar onlar üçün əsas iş prinsipləri olmalıdır - ilk növbədə, xalqa xidmət etmək, xalqla bir yerdə olmaq. Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır. Həyatda, məişətdə özü, onun yaxın qohumları özlərini elə aparmalıdırlar ki, bizim ümumi işimizə heç bir irad tutulmasın. Əfsuslar olsun ki, bəzi hallarda məmurlar özlərini cəmiyyətdə düzgün apara bilmirlər, ifrat dərəcədə təkəbbürlülük göstərirlər, özlərini hamıdan üstün tutmağa çalışırlar və beləliklə, həm öz nüfuzlarını itirirlər, eyni zamanda, dövlətimizə, dövlətin siyasətinə də ləkə vurmuş olurlar. Bununla bərabər, bəzi hallarda korrupsiyaya, rüşvətxorluğa düçar olurlar. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, əyri yola gedən hər bir dövlət məmuru nəticədə məhkəmə, qanun qarşısında cavab verməli olur və belə hallar əfsuslar olsun ki, bu gün də var. Ancaq o da cəmiyyət üçün tam aydındır ki, heç bir qanunsuz hərəkət nəticəsiz qalmayacaq. Ona görə sizdən tələbim, eyni zamanda, xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaq, kadr siyasətində etibarlı, peşəkar və mənəvi cəhətdən təmiz kadrları seçmək, rəhbərlik edəcəyiniz bölgələrdə öz işinizlə mənim seçimimin düzgün olduğunu sübut etməkdir. Əks təqdirdə, əlbəttə ki, lazımi ölçülər götürüləcəkdir.

Bizim bölgələrimizdə əsas infrastruktur layihələri demək olar ki, başa çatıb. Dövlət xətti ilə, dövlət investisiya proqramları xətti ilə son illər ərzində müsbətə doğru böyük dönüş təmin edilib. Bir neçə regional inkişaf proqramının icrası uğurla nəticələnib. Demək olar ki, əsas infrastruktur istiqaməti olan elektrik enerjisi ilə bütün bölgələrdə vəziyyət tam normallaşıb. Təbii ki, köhnəlmiş infrastrukturun təzələnməsi, təmiri məsələləri var. Ancaq bu problem artıq ciddi problem kimi mövcud deyil. Bizim bütün bölgələrimizdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə elektrik infrastrukturunun yaradılması güclü potensial yaratmışdır.

Magistral yollar tamamilə müasir standartlara cavab verir. Şəhərlərarası yollar təmirlidir. Kənd yollarının tikintisi üçün hər il lazımi vəsait ayrılır. Deyə bilmərəm, hələ ki, biz istənilən 100 faiz nəticəyə çatmışıq, ancaq bir çox bölgələrdə kənd yollarının təqribən 70-80 faizi təmirlidir və keyfiyyətlidir.

Bütün şəhərlərdə içməli su layihələri icra edilir. Kəndlərdə də içməli su ilə bağlı lazımi tədbirlər görülür, suvarma layihələri icra edilir, yeni su anbarlarının, su kanallarının tikintisi və suvarma ilə bağlı vəziyyət, ümumiyyətlə, müsbətə doğru dəyişir. Bütün digər infrastruktur layihələri, o cümlədən sosial infrastruktur layihələri, məktəb tikintisi, xəstəxanalar, idman obyektləri. Yəni, bu gün Azərbaycanın bölgələrində bütün bu məsələlər öz həllini tapır. Hər bir şəhərdə müasir xəstəxana fəaliyyət göstərir və bütün bunlar, əlbəttə ki, həm böyük vəsait, həm də gündəlik diqqət tələb edir. Yenə də deyirəm, biz bu məsələləri dövlət xətti ilə, dövlət büdcəsi hesabına regionların sosial-iqtisadi inkişafı proqramlarının icrası nəticəsində həll etmişik.

Qaldı ki, yerlərdə bu gün hələ də mövcud olan, insanları narahat edən məsələlər öz həllini tapsın. Burada da əsas prinsip sosial ədalət prinsipidir. Hər bir bölgədə, hər bir kənddə insanlar görməlidir və bilməlidir ki, ədalət hər zaman üstünlük təşkil edir. Vaxtilə bizim bölgələrimizdə proseslərin mənfi istiqamətdə getməsinin səbəbi də məhz mərkəzi icra orqanlarındakı bəzi məmurların xoşagəlməz hərəkətləri və tapşırıqları idi. Artıq o məmurlardan, necə deyərlər, əsər-əlamət qalmayıb. Azərbaycanda məmur korpusunda, xüsusilə mərkəzi icra orqanlarında aparılan kadr islahatları nəticəsində vəziyyət böyük dərəcədə sağlamlaşdırılıb. Ona görə mən tam əminəm ki, bundan sonra mərkəzdən sizə hansısa bir qanunsuz tapşırıq verilməyəcək. Vaxtilə belə hallar olub və bu qanunsuz tapşırıqları verən, qanunsuz varlanmanı özləri üçün əsas məqsəd hesab edən məmurlar bu gün məhkəmə qarşısında cavab verirlər. Bir çox hallarda torpaqlardan səmərəsiz istifadə edilməsi halları olub, torpaqlar zəbt edilib, torpaqların kateqoriyaları dəyişdirilib. Əkin-biçin üçün yararlı olan torpaqlarda bəzi məmurlar özləri üçün imarətlər inşa ediblər və əlbəttə ki, bütün bunlar qanunsuz hərəkətlərdir.

Ancaq mən onu da bilirəm ki, yerlərdəki bəzi məmurlar məcbur olub o qanunsuz hərəkətləri icra ediblər. Onların, əlbəttə ki, üzərinə düşən məsuliyyət tamamilə başqa yanaşmanı tələb edirdi. Ancaq, eyni zamanda, o da həqiqətdir ki, bəzi hallarda bax, bu qanunsuz əməllərin təməlində harınlamış, acgöz, gözü doymayan mərkəzdə oturan məmurların göstərişləri olub. Amma yenə də deyirəm, sağlamlaşdırma və təmizləmə siyasəti nəticəsində artıq əminəm ki, sizə heç kim qanunsuz tapşırıq verməyəcək. Əgər kimsə bu tapşırığı verərsə, onda dərhal mənə məlumat verin və o adamlar haqqında ciddi ölçülər götürüləcək.

Bölgələrdə əlbəttə ki, məşğulluqla bağlı məsələlər əsas prioritetlərdən biridir. Azərbaycanda bütövlükdə məşğulluqla bağlı son illər ərzində çox böyük islahatlar aparılıb, işsizliyin səviyyəsi aşağı düşüb. Ancaq o da həqiqətdir ki, bu gün hələ də bölgələrdən Bakıya, böyük şəhərlərə miqrasiya meyilləri mövcuddur. Bunun müxtəlif səbəbləri var. Miqrasiyanın, kəndlərdən şəhərlərə axının mövcud olması təkcə bizim ölkə üçün xas deyil, inkişaf etmiş ölkələrdə də bu var. Təbii ki, böyük şəhərlərdə imkanlar da genişdir, yaşayış səviyyəsi də daha yüksəkdir. Bütün bunlar başadüşüləndir. Ancaq, eyni zamanda, bölgələrdən şəhərlərə miqrasiyanın səbəblərindən biri də işsizlikdir. Bölgələrdə insanları işlə təmin etmək üçün indi dövlət müxtəlif addımlar atır, müəssisələr yaradılır, sahibkarlara güzəştli kreditlər verilir, özünüməşğulluq proqramı uğurla icra edilir. Artıq on minlərlə insan bu proqramla əhatə olunub. Ona görə yerlərdəki rəhbərlərdən də tələbim odur ki, iş yerlərinin yaradılmasına çalışsınlar, iş adamlarına şərait yaratsınlar. Təbii ki, onlara dəstək vermək lazımdır. Çünki yerli istehsalın inkişafı həm məşğulluq məsələlərini təmin edir, eyni zamanda, yerli istehsalı da gücləndirir. Kənd təsərrüfatı və turizmlə bağlı son müddət ərzində dövlət xətti ilə bir çox önəmli addımlar atılmışdır. Bunu daha da genişləndirmək lazımdır. Xüsusilə turizm üçün cəlbedici olan bölgələrdə bu, iqtisadiyyatın, bölgə iqtisadiyyatının kənd təsərrüfatı ilə birlikdə əsas amilini təşkil etməlidir.

Bölgələrdəki ekoloji tarazlıq mütləq qorunmalıdır, ətraf mühitə böyük diqqət göstərilməlidir. Bizim bölgələrimizdə prinsip etibarilə ekologiya ilə bağlı ciddi problemlər yoxdur. Əsas problemlər Bakı şəhərində idi ki, biz bunu uğurla həll edirik. Bakının yeni mənzərəsi bunun əyani sübutudur. Vaxtilə burada ekoloji fəlakət hökm sürürdü. Həm Bakı, həm Sumqayıt ekoloji cəhətdən ən çirklənmiş şəhərlər hesab olunurdu. Bu gün isə bu, belə deyil. Bu gün Bakı, Sumqayıt parklar şəhərləridir. Biz köhnəlmiş müəssisələri köçürdük, neftlə çirklənmiş yerləri abadlaşdırdıq, rekultivasiya etdik, parklar saldıq. Qara şəhəri Ağ şəhərə çevirdik. Bölgələrdə isə əlbəttə ki, ekoloji tarazlığın təmin edilməsi üçün, necə deyərlər, başqa üsullar var. Ona görə burada qanunsuz fəaliyyət daha çox ekoloji ziyan vurur, nəinki neft-qaz sənayesi. Ona görə qanunsuz fəaliyyəti məhdudlaşdırmaq, aradan qaldırmaq üçün mənim tərəfimdən müvafiq göstərişlər verildi, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ki, burada çayların məcralarının dəyişdirilməsi, tikinti üçün lazım olan qanunsuz malların işlənməsi, istehsalı - bütün bunlar tənzimlənməlidir və qanunsuz fəaliyyətə qətiyyən yol verilməməlidir.

Bir sözlə, Azərbaycanın bölgələri bu gün ən yüksək standartlara cavab verməlidir. Yenə də deyirəm, son illər ərzində aparılmış işlər nəticəsində bölgələrin canlanmasını hər bir Azərbaycan vətəndaşı əyani şəkildə görür. Doqquz beynəlxalq hava limanı, yenilənmiş, təmir edilmiş və yeni çəkilmiş dəmir yolları, magistral avtomobil yolları, elektrik infrastrukturu, suvarma ilə bağlı, içməli su ilə bağlı olan layihələr, qazlaşdırma. Yəni, bütün bu işləri biz son illər ərzində görmüşük ki, insanlar daha yaxşı yaşasınlar. İnsanlara diqqət göstərmək, onların qayğıları ilə yaşamaq, daim onların arasında olmaq lazımdır. Bütün kəndləri bir-bir gəzib orada - kəndlərdə insanlarla təmasda olmaq. Yəni, mənim tələblərim bundan ibarətdir. Hər təyinatda icra başçısı olsun, digər rəhbər şəxs olsun, mənim təlimatlarım bundan ibarətdir. Amma əfsuslar olsun ki, yenə də deyirəm, göstərdiyim etimada rəğmən bəzi məmurlar bu göstərişləri yerinə yetirmək əvəzinə, ancaq öz ciblərini güdərək qanunsuz varlanmaya üstünlük verirlər. Əminəm ki, bu yüksək etimadı siz öz işinizlə doğruldacaqsınız. Sizin üzərinizə böyük vəzifə düşür, bəziləriniz artıq rəhbər vəzifələrdə çalışmısınız, təcrübəniz də var. Bəziləriniz yeni təyin olunursunuz. Ona görə əminəm ki, öz işinizlə bu etimadı doğruldacaqsınız və xalqın rəğbətini qazanacaqsınız. Sizə uğurlar arzulayıram. Sağ olun".

***

Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsi və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçılar böyük etimada görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirərək, Prezidentin tapşırıqlarını və göstərdiyi bu etimadı doğruldacaqlarını söyləyiblər.

# Strateji tərəfdaşlıq əlaqələrimiz daha da genişlənib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Çinin "China Datang Corporation Ltd." şirkətinin Direktorlar Şurasının sədri Lü Cünün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "China Datang Corporation Ltd." şirkətinin böyük nümayəndə heyətinin Azərbaycana səfərinin əhəmiyyətinə toxunaraq, bunun əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğuladı. Ölkəmizdə çox sayda Çin şirkətinin fəaliyyət göstərdiyini deyən Prezident İlham Əliyev Azərbaycanla Çin arasında vizasız gediş-gəliş rejiminin tətbiqindən sonra Çindən ölkəmizə gələn turistlərin sayının artdığını qeyd etdi.

Dövlətimizin başçısı bu il Çinə dövlət və işgüzar səfərlərini xatırladı, həmin səfərlərdən sonra strateji tərəfdaşlıq əlaqələrimizin daha da genişləndiyini vurğuladı.

Qəbula görə minnətdarlığını bildirən Lü Cün Bakının inkişafının onlarda xoş təəssürat hissi yaratdığını dedi. Qonaq ölkəmizdə özlərinə qarşı dost münasibəti qeyd etdi.

Söhbət zamanı Azərbaycan ilə "China Datang Corporation Ltd." şirkəti arasında enerji keçidi, yaşıl enerji və yaşıl sənaye parkı layihələri ilə bağlı fikir mübadiləsi aparıldı.





# Dövlət Statistika Komitəsində Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunmasının 30 illiyinə həsr olunan təntənəli tədbir keçirilib

Dövlət Statistika Komitəsində Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunmasının 30 illiyinə həsr olunan təntənəli tədbir keçirilib.

Tədbirdən öncə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Komitənin foyesində ucaldılan büstü ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Tədbirin açılışında müasir Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin, həmçinin bir gün öncə Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin qəzaya uğraması nəticəsində şəhid olmuş hərbçilərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Əvvəlcə Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunmasının 30 illiyinə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Çıxış edən iştirakçılar bildiriblər ki, müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratmış və onun inkişafına güclü təkan vermişdir. Azərbaycanın müasir tarixində dövlətçilik ənənələrinin bərpası və möhkəmləndirilməsi məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun cəsarətlə həyata keçirdiyi əsaslı islahatlar respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, qanunun aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan yeni milli Konstitusiyanın hazırlanmasına və qəbuluna şərait yaratmışdır. 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi əsaslarını təşkil edən, ölkənin müstəqilliyini hüquqi cəhətdən təsdiqləyən fundamental sənəd kimi tarixə düşmüşdür. Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış bu sənədin hər bir maddəsi onun Azərbaycanın gələcəyi ilə bağlı strateji baxışlarının təcəssümüdür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Konstitusiyada təsbit olunan bütün müddəaların təmin olunduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, İlham Əliyevin 2003-cü ildə ali vəzifəyə seçildiyi dövrdən başlayaraq qarşısına qoyduğu strateji hədəf Ali Qanunumuzun müddəalarının bütün ölkə ərazisində təmininə yönəlmiş, Vətən müharibəsi və ardınca antiterror əməliyyatı ilə Azərbaycan bütün ərazisində suverenliyini tam bərpa etmişdir.

Sonda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 oktyabr 2025-ci il tarixli sərəncamı ilə statistika işinin təşkilində səmərəli fəaliyyətlərinə görə təltif edilmiş Komitə əməkdaşlarına orden və medallar təqdim olunub. Təltif olunan əməkdaşlar dövlət başçısına öz minnətdarlıqlarını bildiriblər.








# Cənubi Qafqazın ən güclü ordusu...

## Azərbaycan Silahlı Qüvvələri daim inkişaf edir, yenilənir və güclənir...

Azərbaycan qlobal təhlükəsizliyin təminində vacib rol oynayan ölkələrdəndir. Rəsmi Bakı son 5 ildə apardığı siyasət, həyata keçirdiyi addımlarla Cənubi Qafqaz regionun həyatında yeni - təhlükəsiz və sabit inkişafın əsasını qoyub. Xüsusilə 2020-ci ildə Vətən müharibəsində əldə edilən Zəfər illərdir bölgədə davam edən hərbi qarşıdurmaları, müharibə vəziyyətini, işğalı və təcavüzü sona çatdırdı. Artıq Cənubi Qafqazın gələcək perspetkivi kataklizm və ya qarşıdurmalarla deyil, əməkdaşlıq və sülh, sabitlik kimi anlayışlarla xarakterizə olunur. Bölgənin həyatanda yeni sülh dövrünə start verilir.

Bununla yanaşı, müasir dünyada güc və özünümüdafiə faktorları da ön planda çıxış edir. Bəzi dünya güclərinin və strukturlarının beynəlxalq hüquqa skeptik yanaşması, təhlükəsizlik arxitekturasının daimi möhkəmlənməyə ehtiyac duyması ordu quruculuğu prosesini davamlı hala çevirir. Azərbaycan dövlətinin ordu quruculuğu siyasəti də davamlı inkişafa əsaslanır. Xüsusilə, post-müharibə dövründə ordumuzun müasir standartlara əsasən formalaşdırılması, yeni birliklərin yaradılması, yeni silahlarla təchiz olunması, PUA və hava hücumundan müdafiə sistemləri ilə gücləndirilməsi bunu deməyə əsas verir. Azərbaycan Silahlı Qüvvələri yeni dövrün çağırışları əsasında komplektləşdirilir - müharibə dövründə özünün gücünü, qətiyyətini, iradəsini və döyüş ruhunu ortaya qoyan ordumuz postmüharibə dövründə yeni döyüş taktikaları və strategiyaları ilə daha da təkmilləşdirilir.

## Ordu quruculuğu aparıcı prioritet kimi...

Azərbaycanda müasir ordu quruculuğu siyasəti hər zaman ən prioritet hədəflər arasında yer alır - milli təhlükəsizlik strategiyamızın ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi işi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Arxada qoyduğumuz illər ərzində bu sahədə həyata keçirilən davamlı islahatlar nəticəsində Azərbaycanda çox sürətlə və yüksək səviyyədə aparılan ordu quruculuğu işi öz bəhrəsini verdi - 2020-ci il Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə yekunlaşdı. Noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda çıxış edən Prezident İlham Əliyev bildirib ki, 44 gün ərzində bizim şanlı Silahlı Qüvvələrimiz hər gün irəli gedirdi, bir gün bir addım geriyə atmamışdır. Böyük peşəkarlıq, rəşadət, qəhrəmanlıq və fədakarlıq göstərmişdir.

Bununla belə, postmüharibə dövründə də Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkəmizin qüdrəti, iqtisadi imkanlarımız yeni silahların alınmasına, islahatların davamlılığına zəmin formalaşdırır. Xüsusi diqqət yetiriləsi məqam ondan ibarətdir ki, ölkəmiz ötən dövrdə ordu quruculuğunda müasir yanaşmalara və innovativ texnikalardan istifadə olunmasına üstünlük verib.






## Yüksək dəqiqliyə malik yeni raket sistemləri...

Azərbaycan artilleriya qurğularının yenilənməsini də hər zaman diqqət mərkəzində saxlayır - keçirilən hərbi paradda nümayiş etdirilmiş silahlarımız da bunu təsdiqləyir. 120 millimetrlik "Vena" özüyeriyən minaatan qurğusu və artilleriya qurğuları - 122 millimetrlik "Qvozdika", 152 millimetrlik "Akasiya", 152 millimetrlik "MSTA-S", 203 millimetrlik "Pion", həmçinin 220 millimetrlik "TOS-1A" ağır odsaçan, tankəleyhinə "Xrizantema-S" kompleksləri, "DANA" özüyeriyən artilleriya sistemi, 155 millimetrlik uzaqmənzilli "NORA" və 155 millimetrlik uzaqmənzilli "DİTA" özüyeriyən artilleriya sistemləri, 122 millimetrlik RM-70/85 yaylım atəşli reaktiv sistemi, silahlanmaya yeni qəbul edilmiş PULS üzərində 122 millimetrlik "ACCULAR" idarəolunan yaylım atəşli reaktiv sistemi, 160 millimetrlik "QRAD-LAR" yaylım atəşli reaktiv sistemi, silahlanmaya yeni qəbul edilmiş PULS üzərindən buraxılan SkyStriker BLOK-4 sərbəst uçan döyüş sursatları sistemi ordumuzun gücünə güc qatır. Eləcə də, "Qasırğa" taktiki raket kompleksi, 300 millimetrlik uzaqmənzilli TRG-300 taktiki raket sistemi, 300 millimetrlik iriçaplı "Smerç" yaylım atəşli reaktiv sistemi, 306 millimetrlik "Ekstra" taktiki raket kompleksi, 306 millimetrlik "Polonez" əməliyyat taktiki raket kompleksi, silahlanmaya yeni qəbul edilmiş PULS üzərində 370 millimetrlik yüksəkdəqiqlikli "Predator Hawk" əməliyyat taktiki raket kompleksi, beşinci nəsil İCEBREAKER qanadlı raket kompleksi və "LORA" əməliyyat-taktiki raket sistemlərimizin varlığı müasir ordu quruculuğunda mühüm bir yol qət etdiyimizi təsdiqləyir. Qeyd edək ki, beşinci nəsil İCEBREAKER qanadlı raket kompleksi daha yüksək səviyyəli qabiliyyətləri - aşağı aşkar olunma xüsusiyyətləri, inkişaf etmiş manevr qabiliyyəti, şəbəkələşmə və adaptiv naviqasiya, hədəf ayırd etmə və yüksək dəqiqlikli zərbə imkanlarını ifadə edir. İCEBREAKER kimi qanadlı raket kompleksləri adətən uzun mənzilli, dəqiq zərbə təmin edən və müxtəlif növ başlıqlarla (yüksək partlayıcı, ekvivalent penetrasiya və ya xüsusi başlıqlar) təchiz oluna bilən sistemlər kimi təsəvvür edilir. Belə sistemlər döyüş meydanında "dərinlik zərbələri" funksiyasını yerinə yetirərək düşmən ehtiyatlarını, komanda strukturunu və logistika qovşaqlarını məhv etmək vasitəsilə cəbhə xəttini zəiflədə bilər. Yüksək dəqiqlik yüksək zərbə effektivliyi ilə yanaşı, əgər kəşfiyyat və hədəf təsdiqi dəqiqdirsə, yan itkilərin azaldılması şansını artırır.

## Yeni silahlar, yeni qurğular: təhlükəsizliyin qarantı...

Qələbənin 5 illiyinə həsr olunan parad bir daha Azərbaycanın hərbi gücünü bütün dünyaya göstərdi. Paradda nümayiş olunan üzərində 12,7 millimetrlik NSV pulemyotları, tankəleyhinə idarəolunan "SPIKE-ER", 120 millimetrlik "SPEAR" minaatanlar quraşdırılan "SandCat-Stormer" zirehli idarəetmə, çevik hərəkət avtomobilləri, silahlanmaya yeni qəbul edilmiş Milli Müdafiə Sənayesinin məhsulu "VAŞAQ" xüsusi əməliyyat nəqliyyat vasitələri, "COBRA-II" zirehli tibbi təxliyə avtomobilləri, "SKİF" raket kompleksi, "BTR-82A" zirehli transportyorları, "PDM-3" Piyadaların Döyüş Maşınları, "T-72M1" və "T-90S" tankları ölkəmizin yeni ordu quruculuğu siyasətinin genişliyindən və dövlətimizin gücündən xəbər verir. Eləcə də Hava Hücumundan Müdafiə silahları sistemləri - "S-125 TM", "BUK-MB", "BUK-MB2K", "İLDIRIM-8", "S-300 FAVORİT" və "TOR-2M" zenit-raket kompleksləri, silahlanmaya yeni qəbul edilmiş Yerli Müdafiə Sənayesinin məhsulu "VİKİNQ" hava hədəflərinə qarşı çoxfunksiyalı mobil döyüş kompleksi, təkmilləşdirilmiş "Şilka" özüyeriyən zenit qurğusu və "HQ-9" uzaqmənzilli zenit-raket kompleksi ordumuzun Cənubi Qafqazın ən güclü ordusu olduğunu və dövlətimizin təhlükəsizliyini təmin edən ən əsas amil kimi çıxış etdiyini bir daha təsdiqləyir. İnsansız Sistem Qoşunları - üzərində "Orbiter-1KM" zərbə pilotsuz uçuş aparatları, "Orbiter-2", "Orbiter-3" və "Orbiter-4" kəşfiyyat pilotsuz uçuş aparatları, "Aerostar" taktiki-kəşfiyyat pilotsuz uçuş aparatları, "Bayraktar-TB2" silahlı kəşfiyyat pilotsuz uçuş aparatı, silahlanmaya yeni qəbul edilmiş "Hero-120", "Sky Striker" sərbəst uçan döyüş sursatları, "Orbiter-5" taktiki-kəşfiyyat pilotsuz uçuş aparatları, "Harop" zərbə pilotsuz uçuş aparatları, "Hermes-450" taktiki-kəşfiyyat pilotsuz uçuş aparatı yerləşdirilmiş "Marauder" və "Matador" tipli minaəleyhinə zirehli nəqliyyat vasitələri yeni, innovativ ordu quruculuğu fəaliyyətinin mühüm göstərcisidir.

## Silahlı Qüvvələrin həm keyfiyyəti, həm də kəmiyyəti artırılır...

Hərbi parad bir daha təsdiqlədi ki, Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir hərbi strukturu sayılır. Ümumiyyətlə, yüksək döyüş hazırlığına malik olan Azərbaycan Ordusu qarşıya qoyulan istənilən vəzifəni icra etmək gücündədir. Bununla belə, hər zaman inkişafa əsaslanan Azərbaycan müasir ordu bölmələrinin yaradılması yönündə əsaslı addımları ilə seçilir. Müharibədən sonra yaradılan yeni qoşun növləri bu mənada xüsusilə seçilir. Eyni zamanda, Silahlı Qüvvələrin ayrı-ayrı bölmələrinin döyüş qabiliyyətinin getdikcə daha da artırılması və bu məqsədlə yeni, müasir hərbi-sənaye güclərinin formalaşdırılması, texniki təchizatın mükəmməl səviyyəyə qaldırılması da dövlətimizin əsas prioritetlərindəndir. Hazırkı həssas məqam Azərbaycan dövlətinin bu sahəyə xüsusi diqqət ayırmasını zəruri edir. Təsadüfi deyil ki, Vətən müharibəsindlə qazanılan qələbədə böyük zəhməti olan xüsusi təyinatlılarımızın sayı artırılıb. 2020-ci ildə 44 günlük Vətən müharibəsi başlayanda Azərbaycan Ordusunda 2000 nəfərə yaxın XTQ var idi. Bu gün paradda yalnız meydanda 4000 yüksək təlimli XTQ var idi. Bu, yalnız qüvvələrin bir hissəsidir.

Vurğulanmalıdır ki, dövlətimizin apardığı siyasi kurs ordumuzun müasir standartlar əsasında formalaşmasını təmin edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən köklü islahatlar nəticəsində bu gün Azərbaycan Silahlı Qüvvələri regionun ən güclü ordusuna çevrilməklə yanaşı, bütün dünyada ən müasir silahlı qüvvələrdən sayılır.

**_P.İSMAYILOV_**

# Azərbaycan, Türkiyə, Pakistan qardaşlığı

Hazırda dünyada yeni nizam formalaşmaqdadır və ölkələr arasında ciddi qütbləşmələr müşahidə edilir. Belə bir şəraitdə Azərbaycan - Türkiyə - Pakistan dostluğunun daha da möhkəmlənməsi hər üç ölkənin maraqlarına cavab verir. Dünyada ayrı-ayrı ölkələrin bu və ya digər platformalarda birləşmələrinə dair çoxlu sayda misallar sadalamaq mümkündür. Lakin bu formatların bir çoxu süni şəkildə yaradılır və onlar hansısa keçici maraqlar əsasında formalaşdığına görə səhnədən tez silinib çıxırlar. Azərbaycan-Türkiyə-Pakistan üçbucağına gəldikdə isə mənzərə tamam fərqlidir. Bu üç ölkə tarixən bir-birinə bağlı olub və zəngin milli-mənəvi dəyərlər bu gün üç ölkə arasında siyasi əlaqələrin təməlində dayanan çox mühüm amil qismində çıxış edir. Təsadüfi deyildir ki, Azərbaycan, Türkiyə və Pakistanın daha sıx münasibətlər qurmasına həm dövlətlər və liderlər güclü siyasi iradə nümayiş etdirirlər, həm də cəmiyyətlərdə buna böyük istək var.



## Hər zaman sevinclərini və kədərlərini bir-biri ilə bölüşən üç dost ölkə

Məmnunluq hissi ilə qeyd edə bilərik ki, hər üç ölkə uğurların, xoş günlərin sevincini bölüşməyə tələsdikləri kimi, çətin məqamlarda da bir-birinə dəstək olmağa çalışırlar. Bunu biz 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsi günlərində bir daha gördük. Türkiyə və Pakistan keçmiş Dağlıq Qarabağ probleminin lap əvvəlindən Azərbaycanın ərazi bütövlüyünə qətiyyətli dəstəklərini bildiriblər, müxtəlif platformalarda ölkəmizin beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanan mövqeyini birmənalı şəkildə dəstəkləyiblər. Bu qardaşlıq dəstəyi respublikamızın qoşulduğu ədalətli müharibə günlərində daha da gücləndi. Belə ki, Türkiyə və Pakistan liderləri, digər yüksəksəviyyəli rəsmiləri müharibənin ilk günlərindən ard-arda bəyanatlar verərək Azərbaycana güclü mənəvi-siyasi dəstək göstərdilər, xalqımızın, dövlətimizin yanında olduqlarını bildirdilər. Bu bizə əlavə stimul verdi, özünəinam hissimizi daha da gücləndirdi. Beləliklə də, Müzəffər Ordumuz cəmi 44 gün ərzində düşməni tam kapitulyasiyaya məruz qoydu və biz ərazi bütövlüyümüzü, sonrakı mərhələdə isə suverenliyimizi tam təmin etdik.

Öz növbəsində Azərbaycan da davamlı olaraq dost ölkələrə dəstək nümayiş etdirir. Respublikamız indiyədək Ermənistanın qardaş Türkiyəyə qarşı irəli sürdüyü saxta soyqırımı və ərazi iddialarının beynəlxalq səviyyədə ifşa olunmasında mühüm rol oynayıb. 2016-cı il iyulun 15-dən 16-na keçən gecə Türkiyədə xəyanətkar qüvvələr tərəfindən dövlət çevrilişinə cəhd göstərildi. Təbii ki, həmin gecə Azərbaycan xalqının da ürəyi qardaş Türkiyə ilə döyünürdü. Dövlət çevrilişinə cəhd hadisələri Azərbaycanın siyasi rəhbərliyi, şəxsən Prezident İlham Əliyev tərəfindən birmənalı şəkildə qınanıldı və Türkiyənin qanuni hakimiyyətinə həmrəylik nümayiş etdirildi.

2023-cü il fevralın 6-da Türkiyə dəhşətli zəlzələ xəbəri ilə silkələndi. Episentiri Kahramanmaraş şəhərinə düşən 7,7 və 7,6 bal gücündəki dağıdıcı zəlzələ qardaş ölkənin tarixində ən faciəvi səhifələrdən biridir. Həmin faciə zamanı da Azərbaycan Türkiyəni tək buraxmadı. Dövlətimizin başçısının bildirdiyi kimi, Azərbaycan xalqı bu faciəni öz faciəsi kimi qəbul etdi. İlk gündən on minlərlə azərbaycanlı Bakıda, Azərbaycanın müxtəlif şəhərlərində insani yardım göstərmək üçün məntəqələrə gəlib öz qardaşlıq borcunu yerinə yetirməyə başlamışdır. Kahramanmaraşda Prezident İlham Əliyevin xüsusi tapşırığı əsasında “Azərbaycan” məhəlləsinin yaradılması ölkəmizin Türkiyəyə qardaşlıq dəstəyinin daha bir nümunəsidir. Bu layihə təkcə bir tikinti layihəsi deyil, eyni zamanda, Azərbaycan və Türkiyə qardaşlığının, ağır günlərdə bir-birinə dayaq olmağın, dostluq və həmrəyliyin əyani nümunəsidir. “Azərbaycan” məhəlləsi iki ölkə arasında humanitar həmrəyliyin və strateji tərəfdaşlığın gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, respublikamız apardığı ədalətli mübarizədə hər zaman Pakistanın mövqeyini dəstəkləyib. Azərbaycan hökuməti Pakistanda fövqəladə halların yaratdığı fəlakətlərin nəticələrinin aradan qaldırılması məqsədilə dost ölkəyə yardımlar edib.

İki ölkə arasında humanitar sahədə əməkdaşlığın genişlənməsinə Heydər Əliyev Fondu mühüm töhfələr verir. Fond tərəfindən Pakistanda bir çox sosial-yönümlü humanitar layihələr həyata keçirilib. Belə ki, fondun təşəbbüsü və dəstəyi ilə pulsuz tibbi diaqnostika və əməliyyatlar aparılıb, tibb müəssisələrinin və su təchizatı sistemlərinin tikintisinə töhfələr verilib, xeyriyyə tədbirləri təşkil edilib, əlilliyi olan şəxslər əlil arabaları ilə təmin olunub və digər xeyriyyə layihələri həyata keçirilib.

Bu qəbildən olan müstəsna xidmətlərinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva 2013-cü ildə Pakistanın nüfuzlu “Könüllü qadınlar” təşkilatı və “Daily Times” qəzeti tərəfindən “Humanizmin Simvolu - 2012-ci İlin Qadını” mükafatı ilə təltif olunub. 2015-ci ildə isə Pakistan Prezidenti Məmnun Hüseyn Mehriban xanım Əliyevanın “Hilal-e Pakistan” ali ordeni ilə təltif edilməsinə dair sərəncam imzalayıb. Mehriban xanım Əliyeva bu orden ilə təltif olunan ilk birinci xanımdır. Pakistan Prezidenti Məmnun Hüseyn sözügedən ordeni 2015-ci il martın 11-də ölkəmizə rəsmi səfəri zamanı Mehriban xanım Əliyevaya təqdim edib.



## Azərbaycan, Türkiyə və Pakistan arasında genişlənən hərbi əməkdaşlıq

Azərbaycan, Türkiyə, Pakistan əməkdaşlığı çoxvektorlu olması ilə diqqət çəkir. Burada indiki geosiyasi reallıqlar şəraitində hərbi sahədə əməkdaşlığın önəmini ayrıca qeyd etmək lazımdır. Türkiyə və Pakistanın hərbi cəhətdən qüdrətli dövlətlər olmaları Azərbaycanın milli maraqlarına tam uyğundur . Bu gün Azərbaycanla Türkiyənin hərbi sahədə əməkdaşlığının məzmunu kifayət qədər genişdir. İlk növbədə onu qeyd edək ki, NATO-nun aparıcı ölkələrindən olan Türkiyə Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsinə öz dəstəyini göstərir. Hazırda Türkiyə modelinə istinad edilməklə Azərbaycan Ordusunun yeni strukturunun formalaşdırılması, o cümlədən də komando birliklərinin yaradılması prosesi uğurla davam etdirilir.



Azərbaycanla Türkiyə 2021-ci il iyunun 15-də Şuşa bəyannaməsini imzalamaqla onsuz da mövcud olan strateji müttəfiqliklərini rəsmən təsdiqləyiblər. Qars Müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi müstəsna siyasi və tarixi əhəmiyyət daşıyır. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi ilə Azərbaycan-Türkiyə münasibətləri ən yüksək zirvəyə yüksəlib. Sənəddə iki ölkənin bundan sonrakı müttəfiqliyinin və işbirliyinin mühüm istiqamətləri öz əksini tapıb. Şuşa Bəyannaməsi müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından da mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, Azərbaycanın qardaş Pakistanla hərbi əməkdaşlığı getdikcə dərinləşir. Artıq bu ölkənin bir sıra müasir hərbi texnikası Azərbaycanın silahlanmasına cəlb edilib. Bundan əvvəl Azərbaycan və Türkiyə prezidentləri, eləcə də Pakistanın Baş naziri azad Qarabağda - Laçında görüşmüşdülər. Bu dəfə isə qardaş ölkələrin liderləri Bakıda böyük Zəfərimizin 5-ci ildönümü münasibətilə keçirilən hərbi parada qatıldılar ki, bunun da böyük rəmzi mənası var.

*Mübariz ABDULLAYEV*

# Sərmayəçilər üçün “rəqəmsal pəncərə”

**Məlum olduğu kimi, Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən “Invest in Azerbaijan” informasiya sisteminin yaradılması nəzərdə tutulub. Yeni sistem investisiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı investorlara göstərilən xidmətlərin rəqəmsallaşdırılması və “bir pəncərə” prinsipi əsasında təqdim olunmasını təmin edəcək. Rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə xidmətlərin rəqəmsallaşdırılmasını həyata keçirəcək “Invest in Azerbaijan” nəticədə investorlar arasında operativliyi, səmərəliliyi və şəffaflığı möhkəmləndirəcək. Sistemdə saxlanılan məlumatların sistemliliyi və əlçatanlığı təmin olunmaqla fiziki və hüquqi şəxslər arasında əhatəli informasiya arxitekturası formalaşacaq.**

## “Invest in Azerbaijan” investorlara zəruri olan bütün məlumatların əlçatanlığını təmin edəcək

### “Hökumət buludu”na inteqrasiya

“Invest in Azerbaijan” investorların müvafiq dövlət orqanlarına, iqtisadi strukturlara müraciətlərini geniş elektron platformada cəmləşdirməklə, onlara investisiya fəaliyyətinin həyata keçirilməsi üçün bütün zəruri məlumatları təqdim edəcək. Sərmayəçilər həmin geniş bazada investisiya mühiti, investisiya layihələri, mövcud tələblər, imtiyaz və güzəştlər barədə informasiyaları bir mənbədən əldə edəcək ki, bu da onların işini asanlaşdıracaq. Bu, bir növ “Rəqəmsal dövlət”in investisiya bölməsi funksiyasını daşıyacaq. “Invest in Azerbaijan”ın digər bir mühüm üstünlüyü xarici ölkələrin sərmayəçiləri ilə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsi, yeni tərəfdaşlıq əlaqələrinin qurulması, qabaqcıl ideyaların və layihələrin müzakirəsi, ölkəyə yeni investisiyaların cəlb olunması sahəsində əlaqələndirici rol oynamasıdır.

“Invest in Azerbaijan”ın zəruri məlumatlarının “Hökumət buludu”nda yerləşdirilməsi və təkmilləşdirilməsi, habelə “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri”nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi nəzərdə tutulur ki, bu da sərmayəçilərlə bağlı məlumatların güclü informasiya təhlükəsizliyi infrastrukturunda mühafizəsi deməkdir. Sistemin operatoru funksiyalarını Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) həyata keçirəcək.

### Texnoloji tərəqqiyə keçiddə rəqəmsal körpü

İnvestisiya sistemindəki yeniliklərin digər bir mühüm üstünlüyü rəqəmsal iqtisadiyyat və texnoloji transformasiya ilə tamamlanmasıdır. Bulud texnologiyalarının genişləndirilməsi, rəqəmsal məlumat infrastrukturunun inkişafı və innovativ həllərin iqtisadiyyatın əsas sahələrinə inteqrasiyası Azərbaycanın gələcəkdə yüksək texnologiyalar və süni intellekt sahəsində strateji mərkəz rolunu oynamaq üçün mövqelərini daha da möhkəmləndirir. Azərbaycan yaradıcı təşəbbüsləri, iş adamlarına daha mənfəətli fəaliyyət imkanları təqdim edən layihələri daim dəstəkləyir. Bu baxımdan “Invest in Azerbaijan” xarici ölkələrin iş dünyasını ölkəmizin texnoloji tərəqqisinə cəlb etməkdə təşviqedici rəqəmsal körpü rolunu oynaya bilər.

Vahid e-investisiya arxitekturasının qurulması Azərbaycan innovativ biznes ideyalarının reallaşdırılması və əlverişli işgüzar imkanların genişləndirilməsi, kapital, texnologiya və yeni sərmayə ideyalarının ölkəmizdə gətirilməsi işində töhfəverici rol oynayacaq.

### Sağlam və münbit investisiya iqlimi

Göründüyü kimi Azərbaycan hökumətinin xarici investorlarla əməkdaşlığa xüsusi önəm verməsinin, xarici sərmayələr üçün hərtərəfli imkanlar yaratmasının növbəti təzahürü kimi investisiya sektorunun rəqəmsallaşmasına start verilir ki, bu da sərmayə axınları üçün yeni fürsətlər hesab edilə bilər. Qeyd edək ki, ötən illərdə respublikamızda həyata keçirilən hüquqi və institisional islahatlar da e-investisiya mərhələsinə keçiddə mühüm rol oynayıb. Prezident İlham Əliyevin 2018-ci il yanvarın 18-də imzaladığı “İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında” sərəncamına əsasən, ölkə iqtisadiyyatına investisiya axınını cəlb etmək üçün Azərbaycanda əlverişli biznes mühitinin təmin edilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilib. İnvestorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, “İnvestisiya fəaliyyəti haqqında” və “Xarici investisiyaların qorunması haqqında” qanunların qəbul edilməsi, Rəqabət Məcəlləsinin qüvvəyə minməsi sərmayə cəlbediciliyini artırıb. Nəticədə təmin edilmiş münbit sərmayə mühiti sayəsində aparıcı beynəlxalq şirkətlərin ölkəmizdə fəaliyyəti geniş şəkildə təmin olunub, xarici investisiyalı şirkətlərin sayı 7 mini ötüb. 2004-2024-cü illər ərzində iqtisadiyyatımıza 344,4 milyard dollar həcmində sərmayə qoyulub, onun əhəmiyyətli hissəsi və ya 213,2 milyard dolları qeyri-neft sektorunun inkişafına yönəldilib. Bu, xarici investorların Azərbaycana olan etimadı, ölkəmizdə hökm sürən təhlükəsizlik və sabitlik mühitinin bariz göstəricisidir. Hazırda güclü sərmayə etimadı sayəsində əksər xarici şirkətlər bu gün də mənfəətlərini ölkə iqtisadiyyatına təkrar investisiya etməyi seçirlər.

### “BBB” reytinqindən yeni hədəfə doğru

Məhz bu tədbirlər sayəsində Azərbaycanın beynəlxalq miqyasda investisiya cəlbedicliyi yüksəlib. “Standart & Poor’s” və “Moods” reytinq agentlikləri Azərbaycanın investisiya və kredit reytinqini artıraraq “BB+” səviyyəsinə qaldırıb. Eyni zamanda “Fitch Ratings” agentliyi Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren investisiya reytinqini “pozitiv” proqnozu ilə “BBB” səviyyəsində təyin edib. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan inkişaf etmiş ölkə kimi dünyanın aparıcı investitorlarının daim diqqət mərkəzindədir.

Beynəlxalq Valyuta Fondu (BVF) dünya ölkələrində investisiya cəlbediciliyi mühiti ilə bağlı 2024-cü ilə dair hesabatında Azərbaycanı ən yaxşı ölkələr qrupunda qərarlaşdırıb. Belə ki, ölkəmiz ən yaxşı investisiya mühitinə malik “Top-7”qrupunda yer alıb. Yeni islahatlar isə investisiya seqmenti üzrə də irəliləyişlərə yol açacaq, reytinqimizin artmasına stimul verəcək.

Beləliklə, “Invest in Azerbaijan” investor və biznes təmsilçiləri arasında iqtisadi sahədə yeni müqavilələrin bağlanmasına, şirkətlərin bir-birini daha yaxından tanımasına, yeni imkanların, fürsətlərin yaranmasına təsir göstərəcək.

*E.CƏFƏRLİ*



# “Fərqliliyin rəngi”...

## Ölkəmizdə dinlərarası harmoniya yüksək səviyyədədir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

Dünyada müxtəlif dinlər, məzhəblər, inanclar mövcuddur. Bəzən bu fərqlər insanların arasına sədlər çəkir, nifrət toxumları səpilir. Halbuki əsl inanc insanı birləşdirməli, sevgiyə, mərhəmətə, anlayışa çağırmalıdır. Hər bir dinin əsasında eyni ideya dayanır - insanı sevmək, yaxşılıq etmək, ədaləti olmaq.

Dini tolerantlıq təkcə sosial davranış deyil, həm də mənəvi məsuliyyətdir. İnsan başqasının inancına hörmət göstərməklə, əslində öz dəyərlərinə də hörmət edir. Çünki fərqliliyi qəbul etmədən bütövlüyə çatmaq mümkün deyil...

Bu günlərdə Bakıda “Fərqliliyin rəngi” festivalı keçirilib. Tədbirdə 33 dini icma və təşkilatlar - Qafqaz Müsəlmanları İdarəsi, Rus Pravoslav Kilsəsi, Roma Katolik Kilsəsi, Alban-Udi Xristian icması, Azərbaycan Bəhailəri Dini Mərkəzi və digərləri iştirak ediblər. Festival Azərbaycanda formalaşmış tolerantlıq, multikulturalizm, dinlərarası harmoniya və birgəyaşayış dəyərlərinin təbliği məqsədilə təşkil olunub. “Fərqliliyin rəngi” festivalında müxtəlif dini icmaların mədəniyyətini və adət-ənənələrini əks etdirən bədii hissə nümayiş olunub.






**Tolerantlıq Azərbaycan vətəndaşlarının mənəvi güc mənbəyidir**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirib ki, Azərbaycandakı tolerantlıq bu ölkədə yaşayan bütün vətəndaşların mənəvi güc mənbəyidir. Onun sözlərinə görə, Azərbaycan ərazi bütövlüyünün və suverenliyinin bərpası sayəsində bu gün öz milli irsini, dini-mədəni müxtəlifliyini və konstitusion dəyərlərini qoruyaraq gələcəyə daha da inamla addımlayır: “Suverenlik xalqın ən ali dəyərlərindən, ən böyük tarixi nailiyyətlərindən biridir. Suverenlik olmadan konstitusiya prinsiplərinin və qanunların tətbiqi, xalqımızın əsrlər boyu formalaşmış milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin qorunması mümkün olmazdı. Ölkəmizdə məscid, kilsə və sinaqoqların bir-birindən yalnız bir neçə yüz metr məsafədə yerləşməsi birgəyaşayışı, qarşılıqlı hörməti və multikultural dəyərlərimizi təcəssüm etdirir”.

Dini Komitənin sədri bildirib ki, festivalda nümayiş olunan fotostendlər, videoçarxlar, ədəbiyyat nümunələri, əl işlərindən ibarət sərgilər və musiqi proqramları Azərbaycanın zəngin mədəni-dini palitrasını bütün rəngləri ilə əks etdirir: “Bu tədbir bir daha Azərbaycan dövlətçiliyinin minillik dəyərlərdən, hüquqi ədalət və milli iradədən güc aldığını göstərir. Bu festival təkcə mədəni tədbir deyil, həm də suverenliyimizin, konstitusiya prinsiplərimizin və çoxsərlik birgəyaşayış modelimizin canlı nümayişidir. Azərbaycanda mövcud olan fərqlilik bu ölkədə yaşayan bütün vətəndaşların mənəvi güc mənbəyidir”.

R.Məmmədov “Fərqliliyin rəngi” festivalının cəmiyyətə verdiyi mesajı da açıqlayıb: “Hər fərq bir rəngdir, hər rəng bir dəyərdir, tarixdir və bütün rənglər birləşərək cəmiyyətimizin bənzərsiz gözəlliyini, gücünü ortaya çıxarır. 44 günlük Vətən müharibəsində əldə edilən böyük zəfər də məhz bu gücün, birliyin və Azərbaycan xalqının öz keçmişinə sadiqliyinin sayəsində mümkün olub. Bu cür festivallar yalnız dini və mədəni irsimizi qoruyub saxlamaq üçün deyil, həm də gələcək nəsillərə birgəyaşayışın, qarşılıqlı hörmətin və tolerantlığın əhəmiyyətini göstərmək baxımından önəmlidir. Əminəm ki, bu festivalın yaratdığı əhval-ruhiyyə birliyimizi daha da möhkəmləndirəcək”.

**Bütün dinlərin nümayəndələri sərbəst şəkildə ibadət edirlər**

R.Məmmədov qeyd edib ki, Azərbaycandakı unikal dövlət-din münasibətləri modeli sayəsində bu gün bütün dinlərin nümayəndələri sərbəst şəkildə ibadət edir, dini icmalar dövlətin qayğısı ilə əhatə olunur.

O, bildirib ki, konstitusiyada təsbit olunan vicdan azadlığı və bütün dini etiqadların qanun qarşısında bərabərliyi prinsipləri tolerantlıq modelinin əsas hüquqi dayağı, xalqın əsrlər boyu formalaşdırdığı birgəyaşayış fəlsəfəsinin təsdiqidir: “Ölkəmiz beynəlxalq aləmdə sülh və sabitliyin hökm sürdüyü nadir nümunələrdən biri kimi tanınır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr isə bu mühiti daha da möhkəmləndirir, Azərbaycanın multikultural dəyərləri dünya miqyasında tanıdır”.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, Azərbaycanda fəaliyyət göstərən müxtəlif dini icmalar “Fərqliliyin rəngi” festivalında iştirak ediblər: “Azərbaycanda formalaşmış tolerantlıq, multikulturalizm, dinlərarası harmoniya və birgəyaşayış dəyərlərinin təbliği həyata keçiriləcək. Festival Dini Komitənin “Konstitusiya və Suverenlik İli”nə həsr olunan silsilə tədbirlərindən biridir”.



Festivalda dini icmaların kitabları, geyimləri, adət-ənənələri və s. əlaqədar nümunələr nümayiş etdirilib.

*Yeganə*

# BBC - saxta media maşını

Azərbaycan BBC-nin saxta və qərəzli media maşını olduğunu dəfələrlə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Qurumun yayımlarında ədalət, beynəlxalq hüquq, demokratiya, obyektivlik kimi prinsiplər çoxdan unudulub. Belə ki, BBC-nin getdikcə daha çox dərəcədə ayrı-ayrı dairələrin və maliyyə qaynaqlarının ruporuna çevrildiyi, alət qismində istifadə olunduğu aydın müşahidə edilir.

Qurum dünyada geniş auditoriyaya malik olmasından sui-istifadə etməklə bağlı olduğu dairələrin sifarişlərinə uyğun olaraq ayrı-ayrı ölkələri, dövlətləri, tanınmış şəxsləri, ictimai-siyasi xadimləri şantaş predmetinə çevirir. Təbii ki, BBC-nin qərəzli yayımları beynəlxalq səviyyədə ciddi etirazlarla qarşılanır. Bu dəfə qurum Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın qəzəbinə tuş gəlib.

## ABŞ Prezidentindən BBC-yə qarşı təzminat iddiası

ABŞ Prezidenti Donald Tramp BBC-ni montaj edilmiş kadrla bağlı məhkəməyə verməyi və 1 milyard dollar məbləğində təzminat tələb etməyi planlaşdırdığını bildirib. Məlumatı NBC News Trampın hüquq komandasının nümayəndəsinə istinadən yayıb. Nümayəndə bildirib ki, “BBC prezident seçkilərinə müdaxilə etmək cəhdi ilə sənədli filmini qəsdən və aldadıcı şəkildə redaktə etməklə Prezident Trampı rüsvay etdi”.

Prezidentin vəkilləri BBC-yə göndərdikləri məktubda telekanaldan 2024-cü ildə ABŞ-da prezident seçkilərindən bir həftə əvvəl yayımlanan sənədli filmdə yer alan “yalan, böhtan xarakterli, nüfuzdan salan, aldadıcı və təhrikedici ifadələri” geri götürməyi tələb ediblər. Məktubda qeyd olunur ki, BBC noyabrın 14-dək həmin sənədli filmi öz saytından və sosial media hesablarından “tam şəkildə” silməli və “Prezident Trampın çəkdiyi zərərə görə uyğun kompensasiya” təmin edilməlidir. Əks halda, BBC-nin ABŞ-ın Florida ştatında “hüquqi tədbirlərlə üzləşəcəyi” bildirilir. “Sizi xəbərdar edirik. Zəhmət olmasa, müvafiq şəkildə davranın”, - deyə sosial mediada yayılan məktubda vurğulanır.

BBC-nin sözçüsü bildirib ki, qurum məktubu nəzərdən keçirir və “uyğun vaxtda birbaşa cavab verəcək”.

“Tramp: İkinci Şans?” adlı sənədli filmdə Trampın 2021-ci il yanvarın 6-da söylədiyi çıxış montaj edilməklə onun həmin gün Kapitoli binasında baş vermiş iğtişaşları birbaşa təşviq etdiyi təəssüratı yaradılıb. Ötən ilin noyabrında yayımlanan sənədli film yalnız bu yaxınlarda BBC prodüserlərini tənqid edən daxili yazışmaların sızmasından sonra yenidən gündəmə gəlib.

Hadisədən sonra BBC-nin baş direktoru Tim Deyvi və xəbər şöbəsinin rəhbəri Deborah Törness qalmaqal fonunda istefa veriblər. Tramp bu istefaları “Truth Social” platformasında alqışlayaraq onları “korrupsioner” və “nadürüst insanlar” adlandırıb.

BBC-nin sədri Samir Şah isə noyabrın 10-da sözügedən kadrın “aldadıcı” olduğunu etiraf edib və “səhv qərar” üçün üzr istəyib, lakin qurumun sistemli şəkildə qərəzli olması ilə bağlı iddiaları rədd edib.

Sənədli filmdə Trampın “Tam gücümüzlə mübarizə aparacağıq” cümləsini “Kapitoliyə gedəcəyik” ifadəsindən dərhal sonra söylədiyi göstərilir.

Əslində isə Tramp Kapitoliyə getmək barədə bəyanatından sonra “cəsur senatorlarımızı və konqresmenlərimizi dəstəkləyəcəklərini” deyib, “mübarizə aparmaq” ifadəsini isə təxminən bir saat sonra işlədib.

Vurğulamaq yerinə düşər ki, Tramp bundan əvvəl də onu tənqid edən jurnalistlərlə və media qurumları ilə də, necə deyərlər, haqq-hesab çəkib.

Belə ki, o, ikinci prezidentliyi dövründə indiyə qədər “The New York Times”, “The Wall Street Journal” və “ABC News”a qarşı böhtan iddiaları qaldırıb, həmçinin NPR və PBS-ə dövlət maliyyəsini azaldıb, “Associated Press” müxbirlərinin Ağ Evə akkreditasiyasını ləğv edib.




## BBC-nin qərəzindən Azərbaycan da kənarda qalmayıb

Azərbaycan da zaman-zaman saxta media maşını olan BBC-nin qərəzinə tuş gəlib. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin bütün tarixi boyunca regiondan reportajlar hazırlayan BBC əməkdaşları bir qayda olaraq həqiqəti qatlayıb kənara qoyublar, bunun əvəzində erməni yalanlarını, miflərini auditoriyaya həqiqət kimi çatdırıblar. İkinci Qarabağ müharibəsi günlərini xatırlayaq. Azərbaycan ədalətli müharibə aparırdı, yeganə məqsəd də ölkənin ərazi bütövlüyünü və suverenliyini təmin etmək idi. Müharibə günlərində regiona gələn BBC əməkdaşları isə reallığı əyri güzgüdən təqdim etməkdən usanmırdılar. Onların hazırladıqları süjetlərdən elə təəssürat yaranırdı ki, müharibəni başlayan Azərbaycandır, ermənilər isə təzyiq altındadırlar, müharibə və işğal qurbanlarıdırlar. Müharibə günlərində ağır məğlubiyyət acısı yaşayan Ermənistan Azərbaycanın keçmiş təmas xəttindən uzaqda yerləşən Gəncə, Mingəçevir, Bərdə, Tərtər şəhərlərini uzaqmənzilli raketlərlə atəşə tutdu. Çoxlu sayda dinc sakin həyatını itirdi. Onlarca yaşayış evi, mülki infrastruktur dağıldılı. Bu, Ermənistanın əl atdığı əsl müharibə cinayəti idi. Lakin BBC-nin reportajlarında baş verənlərə açıq-aşkar loyallıq sərgiləndi.

BBC Azərbaycana münasibətdə qərəzli yanaşmalarını postmüharibə dövründə də davam etdirir. Bu barədə Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru, tanınmış jurnalist və siyasi şərhçi Reyçel Avraham Kanadanın populyar “THEJ.CA” nəşrində dərc olunan “BBC-nin qərəzi üzə çıxdı: Ermənistanı dəstəkləmək, qlobal yayımda İsraili ləkələmək” başlıqlı məqaləsində yazıb. “BBC kimi qlobal nüfuza malik media qurumunun Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistana tərəfkeşlik etdiyi görünür”, - deyə bəhs olunan məqalədə bildirilir. Müəllif məqaləni “dünyanın ən nüfuzlu yayım orqanlarından birinin faktların təhrifi yolu ilə Qafqaz və Yaxın Şərqdəki münaqişələrdə fikir ayrılıqlarını alovlandırmasına dair araşdırma” adlandırıb.

Qeyd olunub ki, dünya mediasında saxta xəbərlər qlobal bir fenomenə çevrilib. Təəssüf ki, bu vəziyyət BBC kimi tanınmış və nüfuzlu media orqanına da sirayət edib. BBC-də bu yaxınlarda yayımlanan “Ermənistan Qafqazda Silikon Vadisi qurmağa necə çalışır?” başlıqlı məqalə bu xüsusda hər şeyi deyir. Məqalədə Ermənistanın texnoloji startapları cəlb etmək səylərinə və digər bu tip mövzulardan bəhs olunması gözlənildiyi halda əsas diqqət üç “LED” işığına qoşulmuş qutu yaradan 9 yaşlı erməni uşağına ayrılıb. Reyçel Avraham bu situasiyada məqalənin əsl məzmununu tamamilə təhrif edən başlığın seçilməsini Ermənistanı şöhrətləndirmək cəhdi kimi qiymətləndirib.

İsrailli politoloq sözügedən məkrli başlıq seçimindən əlavə, BBC-nin məqaləsində həm Qafqazda, həm də xaricdə Azərbaycanın tərəfdarlarının hiddətinə səbəb olan məsələlərdən birinə diqqət çəkib. “2,7 milyon əhalisi ilə dənizə çıxışı olmayan Ermənistan Cənubi Qafqaz regionunda ən kiçik ölkədir və qonşuları - Azərbaycan və Türkiyə ilə sərhədləri həll edilməmiş ərazi mübahisələrinə görə onilliklər ərzində bağlıdır”, - deyə siyasi şərhçi vurğulayıb. O daha sonra bununla bağlı tutarlı iradlarını bildirib. Ermənistanın coğrafi mövqeyinə, dənizə çıxışının olmamasına görə Azərbaycan və Türkiyənin məsuliyyət daşımadığını qeyd edərək həmin məsələ ilə bağlı vacib suallar ünvanlayıb: “Ermənistan sahil xəttinəmi köçürülməlidir? Yoxsa onun sərhədləri Xəzər dənizinə, Qara dənizə, hətta Aralıq dənizinə doğrumu genişləndirilməlidir? Bəlkə BBC Ermənistanın hər üç dənizə çatmağına üstünlük verir?!”. Müəllif erməni təbliğat orqanında deyil, neytral olması gözlənilən nüfuzlu Britaniya media qurumunda yer alan belə bir iddianı ciddi qəbul etməyi problemli məsələ adlandırıb.

ABŞ dünyanın bir nömrəli güc mərkəzidir. Buna görə də bu ölkənin dövlət başçısının BBC-ni məhkəmə davası və təzminat tələbi ilə hədələməsi böyük rezonans doğurub və qurumun ayrı-ayrı əməkdaşları istefa vermək məcburiyyətində qalıblar. Burada da BBC-nin demokratiyadan çox uzaq olduğu aydın şəkildə görünür. Zamanında BBC qərəzə tuş gələn kiçik Azərbaycanın hər hansı bir iradını qəbul etməyib, indi isə böyük gücün tələbi ilə üzləşən qurum əməkdaşlarını istefaya göndərməklə özünü xilas etməyə çalışır. Bəs BBC-nin jurnalist etikası, prinsipiallığı, ədalətli mövqeyi harada qaldı?

*Mübariz FEYİZLİ*

# Avropa yeni müharibəyə hazırlaşır

**Bu günlərdə Serbiya Prezidenti Aleksandr Vuçiç Avropanın yeni müharibə planlarından danışıb. O hesab edir ki, Avropa ölkələri Rusiya ilə mümkün hərbi münaqişəyə hazırlaşır. Bu barədə Vuçiç “Pink TV”də Fransa Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Fabien Mandonun ölkə ordusunun 3-4 ildən sonra Rusiya ilə toqquşmaya hazır olması barədə bəyanatını şərh edərkən deyib. Onun sözlərinə görə, Serbiya özünü qorumaq üçün ordusunu gücləndirməyə davam etməlidir: “Faktları təhlil etdikcə belə qənaətə gəlirəm ki, Avropa ilə Rusiya arasında müharibə getdikcə daha aydın görünür. Bu, sadəcə boş xəbər deyil. Hamı buna hazırlaşır. Biz ordunu gücləndirməkdə davam edirik və özümüzü ağıllı şəkildə silahlandırırıq. Biz ölkəmizi qorumaq üçün böyük sərmayələr qoymağa davam etməliyik.”,- deyə Vuçiç bildirib.**

## Avropa üçün yeni çağırışlar

Serbiya Prezidentinin Avropanın yeni müharibə hazırlıqlarından bəhs etməsi təsadüfi deyil. Bütövlükdə, Avropa İttifaqı (Aİ) məkanında müharibə həyəcanı xeyli müddətdir ki, davam edir. Avropa üçün yeni çağırışlar Rusiya ilə Ukrayna arasında gedən müharibənin uzanması fonunda getdikcə daha da güclənir və əslində yaxın perspektivin reallığı anlamında qəbul olunur. Amerika Birləşmiş Ştatlarının (ABŞ) yeni administrasiyası Avropanın təhlükəsizliyinin Vaşinqtonun prioriteti olmadığını bəyan etməsi “qoca qitə”ni, necə deyərlər, seçim imkanından məhrum qoyub. Reallıq budur ki, əgər bir vaxtlar Avropanın başı üstündə ABŞ-ın çətiri var idisə, artıq bu müdafiə qalxanı yoxur. Buna görə də indi Fransada, Almaniyada, Polşada, Danimarkada və digər ölkələrdə Avropanın gələcək təhlükəsizliyinin təmin edilməsi ilə bağlı təcili tədbirlərin görülməsinin zəruriliyi barədə intensiv müzakirələr aparılır.

Aİ məkanında ehtimal olunur ki, Rusiya Ukraynada dayandırılmasa müharibənin coğrafiyası mütləq qaydada Şərqi Avropadan kənara çıxacaq və bundan bütün “qoca qitə” təsirlənəcək. Xüsusilə də Rusiyanın son vaxtlarda nüvə potensialını genişləndirməklə bağlı verdiyi bəyanatlar Avropada böyük həyəcanla izlənilir. Moskva bəyan edib ki, Sarmat ağır qitələrarası ballistik raketi Rusiya Silahlı Qüvvələrində 2026-cı ildə döyüş xidmətinə qəbul olunacaq. Rusiya həmçinin yeni nəsil nüvə enerjisi ilə çalışan qanadlı raketlər üzərində işləyir. Yeni silahlardan biri “Burevestnik” adlandırılır və o, ultra kiçik, lakin güclü nüvə reaktorlarına malikdir. Onun işə salınması saniyələr çəkir, ənənəvi reaktorlar isə saatlarla və hətta günlərlə müddət tələb edir. Bildirilir ki, yeni silahların sürəti səs sürətindən üç dəfədən çox olacaq. Mühüm məqamlardan biri də ondan ibarətdir ki, “Burevestnik” və “Poseydon” raketlərində yalnız yerli istehsal olan materiallardan istifadə edilir.

Avropa əvvəllər müharibənin Ukraynada bitəcəyinə daha çox əmin idi. Proseslərin gedişi onu deməyə əsas verir ki, artıq “qoca qitə”də bu əminlik yoxdur. Hələlik iqtisadi məzmunlu sanksiyalarla Rusiyanı taqətdən salmaq və dayandırmaq mümkün olmur. Buna görə də Avropa Rusiyaya qarşı yeni sanksiya paketlərini işə salmaqla bərabər, müharibə hazırlıqlarını da genişləndirir.



Cari il martın 6-da Brüsseldə keçirilən növbədənkənar sammitdə Avropa İttifaqı ölkələrinin liderləri birliyin müdafiə potensialının gücləndirilməsini nəzərdə tutan planını təsdiqləyiblər. Avropa Komissiyası tərəfindən təqdim edilən plan qarşıdakı dörd ildə Avropa İttifaqına üzv ölkələrin müdafiə gücünü artırmaq üçün əlavə olaraq 800 milyard avro xərclənməsini nəzərdə tutur. Müqayisə üçün qeyd edək ki, Aİ-yə üzv ölkələrin müdafiə xərcləri 2023-cü ildə 279 milyard, 2024-cü ildə isə 326 milyard avro təşkil edib. Müharibədən öncə, yəni 2021-ci ildə Avropa İttifaqına üzv ölkələrin müdafiə xərcləri cəmi 214 milyard avro idi.

Müharibə başlayandan bəri Ukraynaya ən çox dəstək verən ölkələrdən biri olan Danimarka Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayenin təqdim etdiyi planı qətiyyətlə dəstəkləyib. Danimarkanın Baş naziri Mette Frederiksen avropalı həmkarlarına müraciət edərək müdafiənin təminatı üçün pul xərcləməkdən çəkinməməyə çağırıb.

Polşanın Baş naziri Donald

## “Qoca qitə”nin silahlanma qərarı

Tusk bəyan edib ki, əgər avropalılar indi müdafiəyə daha çox xərcləməyə başlamasa, böyük müharibənin qarşısını ala bilməyəcək və 10 dəfə çox xərcləməli olacaqlar. Polşa Avropa ölkələri arasında Ümumi Daxili Məhsulunda hərbi xərcləri ən çox təşkil edən ölkədir. Polşa artıq ÜDM-in az qala 5 faizini hərbi məqsədlərə xərcləyir. Buna görə də Polşa digər Avropa ölkələrini hərbi xərclərini artırmağı təşviq edir.

Avropa Komissiyasının sədri Ursula fon der Lyayen bildirib ki, Avropa İttifaqı müdafiə xərclərini büdcə qaydalarına dəyişiklik etməklə artıra bilər. Hazırda İttifaq ölkələrinin büdcə kəsirləri 3 faizdən artıq ola bilməz. Ancaq koronavirus pandemiyası zamanı Avropa Komissiyası üzv ölkələrə bu qaydalardan kənara çıxan istisna etməyə imkan vermişdi. Brüsseldə hesab edirlər ki, indi Avropanın təhlükəsizliyi daha ciddi çağırışla üzləşib və buna görə hərbi xərclər artırılmalıdır.

Qeyd edək ki, Aİ ölkələri hazırda ümumi daxili məhsulun təxminən 2 faizini hərbi xərclərə yönəldirlər. Yeni reallıqlar şəraitində isə bu rəqəmin 3-3,5 faizə qədər artırılması müzakirə olunmağa başlayıb. ABŞ Prezidenti Donald Tramp isə NATO-ya üzv ölkələrin hərbi xərclərini 5 faizə qaldırılmasını istəyir. S&P reytinq agentliyinin hesablamalarına görə, Avropa İttifaqı hərbi xərclərini 2,67 faizə qədər artırarsa, hər il əlavə olaraq 242 milyard dollar, 5 faizə qədər artırsa, əlavə 875 milyard dollar xərcləməli olacaq. Bu, çox böyük məbləğdir. Lakin proseslərin məhz bu istiqamətdə getdiyi aydın görünür.

## Silah istehsalında başlayan ciddi rəqabət

“Qoca qitə”də yeni müharibə hazırlıqlarının düyməsinin basılması fonunda silah istehsalında rəqabət başlayıb, Eləcə də silahların haradan alınması ilə bağlı fikir ayrılığı var. Avropa İttifaqına üzv ölkələr arasında ən güclü hərbi sənaye Fransaya məxsus olduğu üçün Paris Avropa Komisiyasının 800 milyard avroluq silahlanma planına ittifaqa üzv olmayan ölkələrin cəlb edilməsinin əleyhinə çıxır. Almaniya isə strateji müttəfiq kimi baxdığı Böyük Britaniya, İsveçrə, Norveç və Türkiyə kimi ölkələrin də Avropanın silahlanma planında iştirakının tərəfdarıdır. Eyni zamanda, Avropada əksəriyyət ABŞ-dan silah alınmasına qarşı çıxır. Buna görə də ABŞ-ın əksər silah istehsalçılarının səhmləri ucuzlaşır. Ekspertlər hesab edir ki, ABŞ şirkətləri Avropa Komissiyasının təklif etdiyi 800 milyard avroluq sərmayə qoyuluşundan kənarda qalsa, bu, onlara çox ciddi təsir göstərəcək. Analitiklərin qənaətinə görə, ABŞ şirkətlərinin müqavilələrdən kənarda saxlanılması, Aİ-nin Vaşinqtona cavabıdır. Donald Trampın buna həmləsinin necə olacağı isə hələlik bəlli deyil.

Paralel şəkildə, silah istehsal edən Avropa şirkətlərinin səhmləri sürətlə bahalaşmaqda davam edir. “Leopard” tanklarının istehsalçısı olan Almaniyanın “Rheinmetall” şirkətinin səhmləri ilin əvvəlindən bəri 90 faiz artıb. Britaniyanın məşhur “BAE Systems” şirkətinin səhmləri ilin əvvəlindən bəri 30 faiz bahalaşıb. İtaliyanın “Leonardo” və Fransanın “Thales” şirkətlərinin də səhmləri əhəmiyyətli artım nümayiş etdiriblər. Fransa silah istehsalını sürətlə artırır. “Rafale” qırıcılarının istehsalçısı olan Fransanın “Dassault Aviation” şirkəti istehsalını 2-3 dəfə artırmağı planlaşdırır. Hazırda şirkət ay ərzində 2 ədəd qırıcı təyyarə istehsal edir. Şirkət yaxın perspektivdə bu rəqəmi 4-5-ə çatdırmağı planlaşdırır. Fransa Müdafiə Nazirliyi 2025-ci ildə AASM “Hammer” uzunmənzilli raketlərinin istehsalının iki dəfə artırılacağını açıqlayıb. Bu raketlər Fransanın “Safran SA” şirkəti tərəfindən istehsal edilir. İstehsal olunacaq raketlərin bir hissəsinin Ukraynaya veriləcəyi gözlənilir. MBDA şirkəti isə beşinci nəsil tank əleyhinə “Akeron” raketlərin istehsalını 2025-ci ildə iki dəfə artıracağını bəyan edib. “Akeron MP” raketi 140 mm diametrli konteynerdə 15 kiloqram ağırlığında və 1,3 metr uzunluğundadır. MBDA-nın yaydığı məlumatda qeyd edilir ki, beşinci nəsil tank əleyhinə bu raketlər 4 kilometrdən çox təsirli uçuş məsafəsinə malikdir və “atdın-unutdun” funksiyası ilə fəaliyyət göstərir. Raketi buraxdıqdan sonra operatorun onu idarə etməsinə ehtiyac yoxdur. Fransa hökuməti “Veloce-330” yeni nəsil kamikadze dronları istehsal edən “EOS Technologie” şirkətinin və hava və dəniz tətbiqləri üçün informasiya sistemləri istehsal edən “Thales” Qrupunun da Avropanın silahlanma planında önəmli yer almasını hədəfləyir.

*Mübariz ABDULLAYEV*

# Tikanı özünə batan gül

## Uilyam Folknerin “Emili üçün qızılgül” hekayəsi haqqında

“Mənim ona ürəyim yanır. Onun faciəsi ailənin tək övladı olmasındadır. Özünə adaxlı seçmək, ərə gedib şəxsi həyatını qurmaq imkanına yiyələndiyi bir zamanda atası barmaq silkələmişdi ki, yox, sən evi tərk etməməli, mənim qayğımı çəkməlisən. Xeyli sonradan o özünə adaxlı tapsa da, görünür, adamları yaxşı tanımadığından seçimi də uğursuz alınmışdı - adaxlısı onu atıb getmək qərarı vermişdi...”

Bu fikirləri nöqtə-vergülünə toxunmadan Yevgeniya Qrandeyə də aid eləmək olar, ancaq misal gətirdiyim sözlər Balzakın personajı haqqında deyilməyib; bu sözləri Folkner öz məşhur hekayəsinin qəhrəmanı miss Emili barəsində söyləyib. Hər iki qızın gəncliyi ata zəhminin ağırlığı altında əzilib puça çıxır, hər ikisinin gələcəyə - qadınlığa, analığa uzanan yolu özcə atalarının əliylə qapanır, zavallı qızlar övladlıq boyunduruğundan qurtulub valideynlik rütbəsinə yetişə bilmirlər.

Balzak Folknerin ən çox təsirləndiyi, dönə-dönə oxuduğu yazıçılardan biriydi, odur ki, bu iki böyük sənətkarın yaratdığı obrazlar arasındakı doğmalıq da təəccüb doğurmamalıdır. Sənətdəki varislik bağları həyatdakı genetik bağlılıqdan qat-qat möhkəm, çox-çox uzunömürlüdür. Müsahibələrinin birində “Balzakda sizi özünə cəlb eləyən nədir?” sualına Folkner belə cavab vermişdi: “Balzakda məni özünə çəkən onun şəxsi, özünəməxsus dünyasının olmasıdır. Balzakın personajları təkcə elə kitabın səhifələri boyunca gəzişmirlər, bu personajlar arasında ilk səhifəylə son səhifəni calaşdıran cərəyan kimi bir vərəsəlik var. Onların hamısını eyni qan, eyni əzələ, eyni canlı toxumalar birləşdirir”.

“Emili üçün qızılgül” hekayəsini ilk dəfə ötən əsrin səksəninci illərinin sonunda mərhum Tehran Vəliyevin - elə həmin illərdə Selinceri Azərbaycan oxucusuna tanıtmaqla ədəbi mühitimizə yeni bir hava gətirmiş görkəmli tərcüməçinin çevirməsində oxumuşdum. İndi o versiya əlimdə yoxdur, internet resurslarında axtarsam da, təəssüf ki, tapa bilmədim. Sonralar daha bir görkəmli söz adamımız - yazıçı-tərcüməçi Mahir N. Qarayev də Folknerin eyni hekayəsini dilimizə çevirdi. Əsərdən misal gətirəcəyim parçalarda da məhz onun tərcüməsinə istinad olunacaq.

***

1930-cu ildə işıq üzünə çıxarılmış “Emili üçün qızılgül” hekayəsi dünya nəsri tarixində janrın örnəyi sayılan əsərlərdəndir. Hekayə dərc olunanda Folknerin otuz üç yaşı vardı, ədəbiyyat aləmində hələ çox tanınmırdı, ancaq sonralar ona böyük şöhrət qazandıracaq romanlarından ikisini - “Sartoris”lə “Səs-küy və hiddət”i artıq yazıb bitirmişdi. Dünya ədəbiyyatı səltənətində daha çox romançı kimi tanınsa da, Folkner heç vaxt kiçik janra xor baxmamışdı, o tipli yazıçı təkəbbürü ona qətiyyən xas deyildi. Odur ki, adı çəkilən mürəkkəb romanlardan sonra belə bir sadə hekayəyə bəzək-düzək vuran qələmini də qısqanmamışdı.

Hekayənin üslubu, təhkiyəsi də yarandığı dövrün ədəbi tapıntıları kontekstində çox maraqlı, deyərdim hətta unikaldır. Burada təhkiyəçi nə müəllif, nə də onun mərkəzə qoyduğu obrazdır. Təhkiyə şəhər camaatının (söhbət Folknerin yaratdığı ədəbi səltənətin - xəyali Yoknapatofa ölkəsinin paytaxtı Cefferson şəhərindən gedir) dilindən aparılır, üstəlik baş qəhrəmanın mənhus, acı taleyinə təkcə bir nəslin də yox, bir neçə nəslin gözündən baxılır. Özünü “biz” kimi təqdim eləyən, yəni birinci şəxsin cəmində danışan bu kollektiv təhkiyəçiyə sonralar Alber Kamünün “Taun”, Qabriel Qarsia Markesin “Patriarxın payızı” romanında yenidən rast gələcəyik. Hər üç əsərdə o “biz”in yaşı-başı bilinmir, hadisələr kütlənin nəzəriylə izlənir. Kamünün romanında narrator bəlli olsa da (söhbət, əlbəttə, baş qəhrəman doktor Riedən gedir), o da “kollektiv mən”in adından danışır, özünü kütlənin ortasına atıb bir yad kimi üçüncü şəxsin təkində kənardan izləyir. Markesin romanında, eləcə də Folknerin hekayəsində isə kollektiv təhkiyəçinin müşahidə məntəqəsindən, tamaşaçı kütlənin dərinliyindən müəllifin təvazökar sədası gəlir...

“Emili üçün qızılgül” hekayəsinin haradan, necə yarandığı haqda suala müəllif belə cavab vermişdi: “Şüurumda bir mənzərə canlanmışdı - tozlu balış üzərində insan teli. Bu əsər əsasında məhz belə bir obrazın - əldən-ayaqdan uzaq unudulmuş otaqda yastığa yapraxmış bir çəngə telin durduğu qarabasmalardan doğan hekayətdir”. Burası da maraqlıdır ki, hekayədə əsərin başlığına çıxarılmış qızılgüldən-filandan söhbət getmir. Bəs onda hekayənin xanım qəhrəmanına gül bağışlamaq hansı zərurətdən irəli gəlib? Bu suala isə müəllif 1955-ci ildə Yaponiyada keçirdiyi görüşlərin birində cavab vermiş, başlıqdakı qızılgülün rəmzi mahiyyət daşıdığını bildirmişdi: “Burada söhbət bir qadının faciəsindən gedir. Faciənin qarşısını almaq, qadının taleyini dəyişmək mümkün deyil. Mən bu qadının halına yanıram, taleyinə acıyıram, ona görə də hekayənin adıyla onu salamlayır, uzaqdan-uzağa ona hörmət-ehtiram bildirib təzim göstərirəm. Belə hallarda kişinin şərəfinə badə qaldırar, qadına gül bağışlayarlar”.

***

Hekayə yetmiş dörd yaşlı qarımış qızın ölüm xəbəriylə açılır: “Miss Emili Qrirson vəfat edəndə mərhumənin dəfninə bütün şəhər axışıb gəlmişdi: kişiləri - qəhr olmuş abidəyə sonsuz ehtiram və rəğbət qarışıq anlaşılmaz bir duyğu çəkib gətirmişdi; qadınlar isə bu evdə həm aşpazlıq, həm də bağbanlıq eləyən qoca xidmətçi istisna olunmaqla azı on ildən bəri bir allah bəndəsinin ayağı dəyməmiş qədim imarətə baş soxmaq həvəsindən korun-korun yanırdılar”.

Şəhər əhli böyük maraqla Qrirsonların evinə axışır. Evdən çox əlçatmaz qalaya, ünyetməz qəsrə bənzəyən bu mülkün qapısı illər uzunu onların üzünə qapalı qalıb. Malikanə şəhərin göbəyində vətəndaş müharibəsindən əvvəl cənub ştatlarında hökm sürən quldarlıq quruluşunun havası hələ də başından getməmiş aristokrat əsilli Qrirson ailəsinin təkəbbür heykəli, keçmiş əyyamın yeni dövrə istehzayla baxan xatirəsi kimi yüksəlir: “Yetmişinci illərin dəmdəməki ruhunda - eyvanları şəbəkə, damı günbəz və millərlə bəzədilmiş, neçə vaxtdı ağardılmadığından əhəngi büsbütün solub-saralmış kvadratşəkilli nataraz bina şəhərimizin bir vaxtlar barmaqla göstərilən ən kübar küçəsində tikilmişdi. Zaman ötdükcə qarajlar, pambıqəyirmə müəssisələri bu məhəllədə qərarlaşan mötəbər ailələri bircə-bircə sıxışdırıb aradan çıxartmışdı; yalnız Qrirsonların köhnə dəbli imarətləri pambıq furqonlarının, benzindoldurma stansiyalarının başı üzərindən inadkar bir vüqarla boylanmaqda davam edir, sanki hamısına meydan oxuyurdu. Lakin budur, indi miss Emilinin də Cefferson civarındakı döyüşlərdə həlak olan federal ordu əsgərlərinin, konfederatların qəbirlərindən salınmış (aralarında adsız məzarların da az olmadığı) panteonda, kol-kos basmış köhnə məzarlıqda öz yerini tutmaq növbəsi yetişdi”.

Aristokrat nəslinin sonuncu nümayəndələri - ata Qrirsonla miss Emili keçmiş əyyamdan qopa bilməyiblər, özlərini hələ də qul sahibi, plantator kimi aparırlar. Atayla qızı qəzəbli bir inadla vaxtı keçmiş əxlaqi normaların keşiyini çəkirlər, bu səbəbdən özlərindən aşağı saydıqları adamlarla məsafəli davranırlar: “Sağlığında miss Emili şəhərin mənəvi məsuliyyət daşıdığı mühafizəkar əski adətlərin, əxlaqi borcun bir növ mücəssəməsi hesab olunurdu; bu qayda 1894-cü ildən - miss Emilinin atasının ölümündən dərhal sonra Ceffersonun o zamankı meri polkovnik Sartorisin (həmin şəxs ki, zənci arvadların küçələrə önlüksüz çıxmasına fərmanla qadağa qoymuşdu) onu vergidən azad etdiyi vaxtdan şəhərə irsən keçmişdi. Miss Emili bunu heç də xeyriyyəçilik saymırdı; polkovnik Sartoris nəsə dolaşıq bir şey düzüb-qoşmuşdu ki, guya miss Emilinin atası haçansa şəhərin büdcəsinə pul ödəyibmiş və guya bu üsul borcu qaytarmağın ən münasib yolu idi. Belə nağılı yalnız polkovnik Sartoris nəslinin adamı uydura bilərdi və bu cür uydurmaya elə yalnız arvad xeylağını inandırmaq olardı”.

Vətəndaş müharibəsindən sonra Qrirsonların ağır günləri başlansa da, əlbəttə, miss Emili heç kimdən sədəqə götürməzdi. Həmin əski çağların havasıyla böyümüş mərhum polkovnik Sartoris məhz bunu bildiyindən belə bir nağıl uydurub. Nəticədə Emili hökumətə yox, hökumət Emiliyə borclu qalıb. Ancaq şəhər bələdiyyəsində yeni nəslin nümayəndələri iş başına keçəndə məlum olur ki, miss Emilinin vergi ödəməmək üçün heç bir tutarlı əsası, əlahiddə imtiyazı yoxdur. Onun evinə əvvəlcə vergi bəyannaməsi, ardınca da bir neçə bələdiyyə işçisi göndərilir, di gəl, miss Emili vergi ödəməkdən qəti surətdə imtina eləyib çağırılmamış qonaqlara qapını göstərir, onları polkovnik Sartorisin üstünə göndərir. Sartoris isə on il bundan qabaq ölüb. Emili bu müddətdə rahibə kimi zamansız yaşayıb.

**davamı növbəti sayımızda**



***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN






# İnsanlığın ən uca zirvəsi!

## Qəlbləri bir araya gətirən gün...

Dünyada zamanla hər şeyin dəyəri dəyişir. Var-dövlət unudulur, pul dəyərini itirir, gözəllik solur. Amma bir şey var ki, zaman onun dəyərini azalda bilmir - xeyirxahlıq. Xeyirxahlıq insan qəlbinin ən saf, ən nəcib hissidir. O, bəzən bir dilim çörək, bəzən səmimi bir söz, bir baxış qədər sadə, amma dəyərli olur. Xeyirxahlıq edən insan təkcə başqasına deyil, əslində öz ruhuna nur qatır. Xeyirxahlıq nə böyük sərvət, nə də çoxlu söz tələb edir. Bu əməl, sadəcə, ürək istəyir.

Noyabrın 13-də Ümumdünya Xeyirxahlıq Günü qeyd olunur. Ümumdünya Xeyirxahlıq Hərəkatının birinci konfransı 1988-ci ilin məhz bu günü Tokioda keçirilib. Konfransda Avstraliya, Kanada, Yaponiya, Tailand, Sinqapur, Böyük Britaniya və ABŞ-ın nümayəndələri iştirak ediblər. Sonralar başqa ölkələr də bu hərəkata qoşulublar.

"Ümumdünya Xeyirxahlıq Hərəkatı" təşkilatı 1997-ci ildə Yaponiyada yaradılıb. Müxtəlif ölkələrdən olan xeyirxahlıq hərəkatının həmfikirləri və könüllüləri " bir bayraq altında" toplanıblar. Bu təşkilat yorulmadan hərəkət edir və öz əməlləri ilə insanları xeyirxah işlər görməyə ruhlandırır. Bu gün xeyirxah, səmimi, nəcib bir iş görmək istəyən hər kəs onlara qoşula bilər. Üstəlik, Hərəkat iştirakçılarının əsas ünsiyyəti internet vasitəsilə baş verir. Burada onlar öz resurslarında xeyirxah işlərə dair ideyalar və onların həyata keçirilməsi yolları haqqında danışırlar.

Hərəkatın özünün "Xeyirxahlıq Bəyannaməsi" adlı rəsmi sənədi var. Orada deyilir: "Biz sadə insan mehribanlığını məmnun və mənalı həyatın əsas şərti kimi qəbul edirik və bu sənədlə Ümumdünya Xeyirxahlıq Hərəkatını yaratmağımızı elan edirik. Biz hər bir ölkədəki təşkilatlar vasitəsilə və dünya miqyasında şəbəkə yaratmaqla bir araya gəlməyə və daha mehriban, daha mərhəmətli bir dünya yaratmağa çalışacağıq".



Məhz bu təşkilatın üzvləri belə gözəl bayram yaratmağı təklif ediblər. Ümumdünya Xeyirxahlıq Günü rəsmi olaraq Sinqapurda 2000-ci il noyabrın 18-də Hərəkatın 3-cü Konfransında təsis edilib.

**Xeyirxahlığın sağlamlığa təsiri**

Müxtəlif ölkələrin psixoloq və həkimlərinin araşdırmasına görə, hər gün xeyirxah işlərlə məşğul olan insanlar özlərini fiziki cəhətdən daha yaxşı hiss edirlər. Onlar həyatlarını daha ahəngdar olduğunu hiss edir, daha yaxşı immunitetə malikdirlər. Yəni daha az xəstələnirlər və daha uzun yaşayırlar. Bütün bunlar hətta praktiki araşdırmalarla da təsdiqlənib. İnsan başqa insanlara yaxşılıq edəndə onun limfositlərinin səviyyəsi yüksəlir və qan damarları genişlənir. Bu, ürəyin düzgün işləməsinə səbəb olur. Beyin sakitləşdirici təsir göstərən, stresin təsirlərini neytrallaşdıran və depresiyanı yüngülləşdirən çoxlu miqdarda endorfin ("zövq hormonları" kimi tanınır) istehsal edir.

Heç kimə sirr deyil ki, müasir dünyada texnologiyaların hər keçən gün daha da inkişaf etdiyi bir zamanda insani hisslər, mənəvi keyfiyyətlər getdikcə ikinci plana keçir. Odur ki, bugünkü bayram insanlara xeyirxahlığı xatırladır və müxtəlif ölkələrdə mövcud olan xeyirxahlıq hərəkatlarını birləşdirir.

*Yeganə BAYRAMOVA*

# Onlar görməsələr də, hiss edirlər...

## Bir az mərhəmət, bir az anlayışla dünya daha işıqlı olar



İnsanı insan edən təkcə gördükləri deyil, hiss etdikləri, anladıqları və sevdikləridir. Bəzən gözlər görməz, amma qəlb hər şeyi görə bilər. Gözdən əlil insanlar da bizim kimi bu dünyanın bir parçasıdırlar, sadəcə, dünyanı bizdən fərqli bir şəkildə görürlər. Onlar qaranlığın içində işığı duyan, səssizliyin içində səsi eşidən insanlardır.

Çox vaxt görməyə o qədər öyrəşirik ki, gözdən əlil insanların necə yaşadığını, dünyanı necə dərk etdiyini unuduruq. Amma unutmamalıyıq, hər birimizin həyatında bir anlıq qaranlıq ola bilər. Və o qaranlıqda bir gülüş, bir salam, bir yardım əli ən böyük işıqdır.

Noyabrın 13-də Beynəlxalq Gözdən Əlillər Günüdür. Bu günün noyabrın 13-də qeyd olunması ilk tiflopedaqoqlardan biri, görməyənlər üçün relyefli əlifbanın müəllifi, gözdən əlillər üçün ilk təhsil müəssisələrinin yaradıcısı, məşhur fransalı xeyriyyəçi Valentin Qayuinin doğum günü ilə əlaqədardır. O, 1745-ci ildə Fransanın Amyen şəhəri yaxınlığındakı Sen-Jüst kəndində, kasıb toxucu ailəsində anadan olub. Ümumdünya Səhiyyə Təşkilatı onun doğum tarixini Beynəlxalq Gözdən Əlillər Günü elan edib.



XVIII əsrə qədər dünyada korlar üçün təhsil müəssisəsi yox idi. Valentin Qayui ilk dəfə Fransada gözü dünya işığından məhrum olanların təhsili üçün xüsusi üsul yaradıb. O, 1784-cü ildə dünyada ilk dəfə Parisdə hökumətin və xeyriyyə cəmiyyətlərinin köməyi olmadan öz evində şəxsi vəsaiti hesabına kor uşaqlar üçün "işləyən korların emalatxanası"nı açıb. İlk dəfə həmin məktəbə kimsəsiz uşaqlar qəbul edilib.

Valentin Qayui kor uşaqların təlim və tərbiyəsinə elmi cəhətdən yanaşıb. Onun işləyib hazırladığı "unsial" adlanan xüsusi qabarıq şriftin köməyi ilə kor uşaqlara oxumaq öyrətmək və onlar üçün kitablar çap etmək mümkün olub. Kor uşaqlar həmin şriftlərlə mətn yığmaq bacarığına yiyələniblər. Bundan başqa, Valentin Qayui gözdən əlillər üçün cihazlar, qabarıq aşkar dərsliklərin, coğrafiya xəritələri və qlobusların istehsalı üçün matrislər qurub. Gözdən əlillər üçün kitabların yaradılması ideyası da ona məxsusdur.

Ciddi maddi çətinlik çəkməsinə baxmayaraq, Valentin Qayui mətbəə yaradaraq qabarıq-xətti şriftlə korlar üçün ilk kitablar çap edib. 1829-cu ildə isə Paris Milli İnstitutunun şagirdi Lui Brayl kor uşaqlar üçün nöqtə-relyef şriftinin universal sistemini hazırlayıb və həmin sistem bütün dünyada yayılıb.

2007-ci il dekabrın 9-da BMT-nin inkişaf Proqramı ilə Heydər Əliyev Fondu arasında görmək qabiliyyətini itirənlər və zəif görənlər üçün informasiya-rabitə texnologiyalarına çıxışı təmin edən razılaşma sənədi imzalanıb. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hazırda dünyada təxminən 2,2 milyard bu və ya digər formada görmə məhdudiyyətli insan var, onlardan 36 milyonu görmə qabiliyyətini tam itirib. Statistikaya görə, Azərbaycanda 630 min əlilin 30 min nəfərini korlar və zəif görənlər təşkil edir. Ölkəmizdə görmə qabiliyyəti məhdud olanların həyat və məişət şəraitinin yaxşılaşdırılması üçün hər il bir sıra layihələr həyata keçirilir, zəruri tədbirlər görülür.

Bu gün cəmiyyət olaraq bizə düşən məsuliyyət gözdən əlil insanlara sadəcə mərhəmət göstərmək deyil, bərabər imkanlar yaratmaqdır. Onların təhsil alması, işləməsi, ictimai həyatda iştirak etməsi üçün şərait yaratmaq, onların bacarığını görmək və dəyərləndirmək hər birimizin humanist borcudur. Unutmayaq ki, görmək yalnız gözlə deyil, insanlıqla, anlayışla mümkündür. Bəzən adi bir gülümsəmə, səmimi salam, uzadılan yardım əli qaranlıq bir dünyada günəş qədər işıq saçır...

*Yeganə BAYRAMOVA*

# Hüceyrələrdə insulin anormallığının qarşısını alan yeni amil




Yaponiyanın da daxil olduğu beynəlxalq tədqiqat qrupu hüceyrələrdə insulin anormallıqlarının qarşısını alan yeni amil aşkar ediblər.

AZƏRTAC Yaponiyanın Jiji Press informasiya agentliyinə istinadla xəbər verir ki, insulini düzgün formada toplayan və qan şəkərini azaldan maddənin anormallığının qarşısını alan sistem endoplazmatik şəbəkə adlanan hüceyrənin içərisində tapılıb.

Britaniyanın "Nature Cell Biology" jurnalında dərc olunan bu araşdırma diabet xəstələri üçün yeni müalicə metodlarının inkişafına kömək edə bilər. Tədqiqatçılar qeyd ediblər ki, bundan öncəki tədqiqatlarda endoplazmatik şəbəkənin zülalları düzgün bir şəkildə yığdığı və onlarda anormallıqların qarşısını aldığı aşkar edilsə də, mexanizm tam aydın olmayıb.

Qeyd edək ki, insulin mədəaltı vəzidə istehsal olunan bir hormondur. O, qan şəkərini tənzimləyir və onu qan dövranından enerji üçün ehtiyacı olan hüceyrələrə daşımağa kömək edir. İnsulin dirənci yarandıqda, əzələ, piy və qaraciyər hüceyrələri insulini normal şəkildə emal edə bilmir, buna görə də qlükoza qanda yığılmağa davam edir.

# Avropa ölkələrində quş qripi xəstəliyi sürətlə yayılır

Avropada sürətlə yayılan quş qripi (H5N5) xəstəliyi Lüksemburqdakı iri supermarket şəbəkələrini və onların təchizat zəncirlərini ciddi sınaq qarşısında qoyub. Xüsusilə Milad və Yeni il bayramları ərəfəsində artan tələbat fonunda yumurta və toyuq məhsullarının təminatında çətinliklər müşahidə olunur.

AZƏRTAC xəbər verir ki, "Auchan" şirkətinin nümayəndəsi "Luxembourg Times" nəşrinə açıqlamasında Fransadan alınan yumurtaların tədarükündə problemlərin yaranmasından danışıb. "Təchizat zəncirimizdə ciddi təsirlər hiss olunur. Bununla belə, yerli tərəfdaşlarımız sayəsində müəyyən səviyyədə təminatı qoruyuruq, amma həmləri artırmaq çox çətindir", - deyə o bildirib. Şirkətin nümayəndəsi, həmçinin topdansatış bazarında qiymətlərin kəskin artdığını və bazarda sabitliyi qorumağın getdikcə çətinləşdiyini əlavə edib.



Lüksemburqda fermerlər sərt biosanitar qaydalar tətbiq edildiyini bildirərək, təhlükəsizlik tədbirlərinin maksimum səviyyəyə çatdırıldığını deyiblər. Onlar vurğulayıblar ki, hazırda ətraf ölkələrdə yumurta qıtlığı və daxili tələbin artması səbəbindən bütün sifarişləri təmin edə bilmirlər.

Qeyd edək ki, hazırda quş qripi xəstəliyi Avropa İttifaqına üzv olan azı 15 ölkədə qeydə alınıb. Bu səbəbdən Almaniyada təxminən 1 milyon, Danimarkada 430 min, Belçikada azı 70 min quş məhv edilib. Fransada quşlara kütləvi şəkildə vaksin vurulur. Niderlandda regional məhdudiyyətlər tətbiq olunub.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4962
Sifariş: 2328
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova